QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 012 (5484) 20 **yanvar** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycan xalqının istiqlal və mücadilə yolu

*1990-cı ilin 20 Yanvar faciəsindən 28 il ötür*



Səh 4

**Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır**



2

**YAP İdarə Heyətinin iclası keçirilib**

4

**1990-cı ilin yanvar hadisələri: ermənilərin Naxçıvanı işğal etmək planı necə pozuldu?**



8

**"The Jerusalem Post" qəzetinin oxucuları "İslam Həmrəyliyi İli"nin yekunları barədə məlumatlandırılıb**



6

**"The Washington Times": Beş səbəbə görə Azərbaycana getmək mütləq lazımdır**



3

**"Bu qətnamə saxta və yalan məlumatlara əsaslanır"**



3

7

**Baş prokuror Qobustanda vətəndaşları qəbul edib**



9

**Çili radiosunun saytında 20 Yanvar faciəsi ilə bağlı geniş məqalə yayılıb**



16

**2018 Formula-1 Azərbaycan Qran Pri yarışı ilə əlaqədar viza prosedurları sadələşdiriləcək**



# Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır

*Prezident İlham Əliyev: "Ordumuz üçün nə lazımdırsa biz onu da edirik. Ordumuzun maddi-texniki bazası möhkəmlənir. Hərbi bazalar, şəhərciklər, hərbi hissələr yenidən qurulur, əsaslı təmir edilir"*



***Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlətimizin başçısı İlham Əliyev yeganə problemimiz olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində diplomatik qələbəmizi önə çəkərək bildirib: "Bununla yanaşı, təbiidir ki, biz hərbi gücümüzü də artırırıq. Bu gün beynəlxalq reytinqlərə görə, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Ordumuz üçün nə lazımdırsa, biz onu da edirik.***

Ordumuzun maddi-texniki bazası möhkəmlənir. Hərbi bazalar, şəhərciklər, hərbi hissələr yenidən qurulur və əsaslı təmir edilir. Bizim hərbi şəhərciklərimizin, bazalarımızın və hissələrimizin 80 faizi artıq beynəlxalq standartlara cavab verir. Təmirə ehtiyacı olan qalan hərbi hissələrin təmir işləri növbəti illərdə yekunlaşmalıdır. Nə qədər lazımdırsa, vəsait ayrılır və ayrılacaq. O cümlədən, yeni müasir silahların alınması üçün lazım olan vəsait ayrılır. Yoxsul Ermənistandan fərqli olaraq, biz öz hesabımıza yaşayırıq, o cümlədən, hərbi gücümüzü öz hesabımıza artırırıq. Ermənistandan fərqli olaraq, heç kimdən dilənmirik, heç kimə yalvarmırıq, kredit üçün müraciət etmirik. Ona görə Azərbaycan ictimaiyyəti və düşmən bilməlidir ki, Azərbaycan Ordusu bundan sonra da güclənəcək və istənilən tapşırığı yerinə yetirməyə hazırdır. Yaxın tarix bunu göstərmişdir".

2016-cı ilin aprel döyüşləri Azərbaycan Ordusunun gücünün, qüdrətinin və dövlətimizin qətiyyətinin nümayişi oldu. Məlumdur ki, işğalçı Emənistan və ona havadarlıq edən dövlətlər daim Azərbaycanın hərbi xərclərini artırmasını sülh danışıqlarından imtina kimi dünyaya təqdim etməyə çalışırdılar. Buna cavab olaraq, rəsmi Bakı hər zaman bəyan edir ki, sülh danışıqlarının cəsarətlə aparılması üçün güclü ordunun olması mütləqdir. Digər tərəfdən, Azərbaycanın tam haqqı var ki, işğal altında olan torpaqlarını istənilən yolla azad etsin. Təbii ki, sülh danışıqları səmərə vermədiyi təqdirdə, hərb yolunun seçilməsi şəksizdir. Azərbaycan dövlətinin bu mövqeyi ordumuzun gücünə və döyüş qabiliyyətinə əsaslanır. Ölkə Prezidenti bildirir: "Biz hərbi gücümüzü artırmışıq və artıracağıq. Siyasi addımlar atılacaq ki, beynəlxalq ictimaiyyət bu məsələ ilə bağlı öz mövqeyini daha da geniş ifadə etsin. Biz öz iqtisadi gücümüzü artıracağıq və bütün böhranlara baxmayaraq, ordumuza nə qədər vəsait lazımdırsa, o qədər də təmin ediləcəkdir. Bu gün də bizim büdcə xərclərimizin strukturunda hərbi xərclər birinci yerdədir... Ordumuzun ehtiyacları təmin edilməlidir və biz gücləndikcə, əlbəttə ki, münaqişənin həllini yaxınlaşdıracağıq".

Ölkəmizin iqtisadi imkanlarının genişlənməsi hər sahədə, o cümlədən, ordu quruculuğu istiqamətində mühüm tədbirlərin həyata keçirilməsini şərtləndirir. 2003-cü ildə 160 milyon dollar olan hərbi büdcəmiz bu gün 3 milyard dollardan artıqdır. Azərbaycanın hərbi büdcəsi Ermənistanın ümumi büdcəsindən iki dəfə çoxdur. Cari ilin dövlət büdcəsindən ayırmalarda da, hərbi xərclər əsas yer tutur. Müharibə şəraitində yaşayan bir ölkədə dövlət büdcəsində hərbi təyinatlı xərclər üçün ayırmalara, ordu quruculuğuna bu cür diqqət və qayğı təbiidir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində danışıqlar istənilən nəticəni verməyənə qədər orduya ayırmalarda artımın daim diqqətdə saxlanılacağını vurğulayan Prezident İlham Əliyev Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının - dünyanın ən mötəbər qurumunun 4 qətnaməsi, digər beynəlxalq təşkilatların oxşar qərar və qətnamələrinin icra edilməməsini ədalətsizlik hesab edərək, bir daha bildirir ki, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil, olmayıbdır və olmayacaqdır. Biz çalışırıq ki, məsələ tezliklə beynəlxalq hüquq normaları əsasında öz həllini tapsın və Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü bərpa edilsin. Bunun üçün biz diplomatik səylərimizi davam etdirəcəyik. Bizim işimiz haqq işidir. Biz heç bir başqa ölkənin torpağını zəbt etməmişik, heç bir başqa ölkənin torpağında bizim gözümüz yoxdur. Ancaq bu işğal çox çəkə bilməz. Azərbaycanın ərazi bütövlüyü istənilən yolla bərpa ediləcək.

Bu və ya digər dövlətlərin əlində oyuncağa çevrilən, onların maraqlarının ifadəçisi kimi çıxış edən Ermənistan heç bir sahədə ölkəmizlə rəqabət aparmaq imkanında deyil. İşğalçılıq siyasəti onun bütün enerji layihələrindən kənarda qalmasına səbəb olub. İqtisadi böhran içərisində yaşayan bir ölkənin güclü ordusunun olması nə dərəcədə real ola bilər. Baxmayaraq ki, S.Sarkisyan dünyanın nüfuzlu təşkilatlarının tribunasından öz yalanlarını həqiqət kimi sırımağa çalışır, utanmadan Dağlıq Qarabağın Ermənistanın ərazizisi olduğunu, eyni zamanda, münaqişənin həllində hərb variantı seçilərsə, Ermənistan ordusunun qalib olacağını bildirir. Sərsəm bəyanatlarla ictimai fikri çaşdırmağın mümkünsüzlüyünün fərqində olan Ermənistan prezidenti anlayır ki, yalanlarla çox uzağa getmək mümkün deyil.

Prezident İlham Əliyev çıxışlarında bu məsələyə də, diqqət yönəldir ki, hər bir ölkə öz müstəqilliyini qorumağa, öz seçimini müdafiə etməyə səy göstərməli və gələcəyi haqqında düşünməlidir. Müstəqil ölkə kimi Azərbaycan bu gün də müstəqil siyasət aparır. Ölkəmizin bu gün dünyada yerinin və rolunun artması, beynəlxalq münasibətlər sisteminin ən fəal üzvü kimi nüfuz qazanması da, bu gerçəkliyi təsdiqləyir ki, siyasətində müstəqil olan dövlət davamlı inkişafını təmin edəcək təkmil islahatları həyata keçirmək gücündə və qüdrətindədir. Ermənistan aciz durumda olan, gücsüz, dilənçi bir ölkədir. Əlbəttə, əgər onun müxtəlif paytaxtlarda böyük havadarları olmasaydı, Dağlıq Qarabağ münaqişəsi çoxdan ədalətli şəkildə öz həllini tapa bilərdi. Hətta hazırda Ermənistan rəhbərliyi də bunu etiraf edir. Xarici dəstək olmadan onlar işğal edilmiş torpaqları bu gün də işğal altında saxlaya bilməzlər. Ancaq Azərbaycan təkbaşına mübarizə aparır. Yaxın tariximiz göstərir ki, ölkəmiz təkbaşına mübarizədə, siyasi mübarizədə uğur qazana və milli maraqlarımızı müdafiə edə bilər.

***"Səs" Analitik Qrupu***

## Rəsmi xronika

Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə başsağlığı verib. Başsağlığında deyilir: "Hörmətli Şavkat Miromonoviç, Qazaxıstanın Aktobe vilayətində sərnişin avtobusunun yanması nəticəsində həmvətənlərinizin faciəli şəkildə həlak olması xəbəri məni son dərəcə sarsıtdı. Baş vermiş bu hadisə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Özbəkistan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm. Allah rəhmət eləsin!"

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 955-VQ nömrəli Qanununun tətbiqi barədə Fərman imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Qafqaz Müsəlmanları İdarəsi tərəfindən keçiriləcək bir sıra tədbirlərin maddi təminatı haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev 2018 Formula 1 Azərbaycan Qran Pri yarışının təşkili və keçirilməsi ilə bağlı Azərbaycana gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 23 oktyabr tarixli 3 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə"də dəyişikliklər edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən Çıxarış"ın və "Torpaq sahəsinin planı və ölçüsü"nün təsvirlərinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 17 iyun tarixli 553 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 951-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 9 fevral tarixli 48 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə Fərman imzalayıb.

# YAP İdarə Heyətinin iclası keçirilib

***Yanvarın 19-da Yeni Azərbaycan Partiyası İdarə Heyətinin növbəti iclası keçirilmişdir.***



İclasda YAP İdarə Heyətinin 2017-ci ilə dair illik hesabatı, Yeni Azərbaycan Partiyasının tərkibi, Gənclər Birliyinin və Qadınlar Şurasının tərkibi haqqında 2017-ci ilə dair illik statistik hesabat, partiyanın 2017-ci il üzrə maliyyə hesabatı və İdarə Heyətinin 2018-ci ilin birinci yarımilliyinə dair iş planı müzakirə olunaraq qəbul edilmişdir.

Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini - icra katibi Əli Əhmədov iclasın gündəliyinə daxil olan məsələlər barədə məlumat verərək, qeyd etmişdir ki, 2017-ci ildə Azərbaycanın iqtisadi və sosial həyatında dinamik inkişaf davam etdirilmişdir. Ötən ilin başlıca siyasi hadisəsi Azərbaycanda "İslam həmrəyliyi İli" çərçivəsində həyata keçirilmiş tədbirlər, eləcə də, IV İslam həmrəyliyi oyunlarının paytaxt Bakıda keçirilməsi olmuşdur.

Xususilə vurğulanmışdır ki, Azərbaycanın Birinci xanımı, Yeni Azərbaycan Partiyasının Sədr müavini Mehriban Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse - prezidenti təyin edilməsi Yeni Azərbaycan Partiyasının çoxminli üzvlərinin qəlbində möhtəşəm qürur və sevinc hissləri yaratmışdır.

Hesabat ilində Yeni Azərbaycan Partiyası müxtəlif xarakterli bir sıra mühüm tədbirlər həyata keçirmiş, ölkənin ictimai-siyasi həyatında yaxından və fəal iştirakını davam etdirmişdir.

Hesabat dövründə Yeni Azərbaycan Partiyası beynəlxalq əlaqələrinin daha da şaxələndirilməsi istiqamətində səylərini uğurla davam etdirmişdir. Xüsusilə müxtəlif ölkələrin aparıcı siyasi partiyaları və demokratik təsisatları ilə Yeni Azərbaycan Partiyası arasında mövcud münasibətlər daha da genişləndirilmiş, bu məqsədlə bir sıra mühüm görüşlər keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev partiyanın yaranmasının 25 illik yubileyi münasibəti ilə Heydər Əliyev Mərkəzində keçirilən mərasimdə iştirak etmiş və geniş nitq söyləmişdir.

Prezident İlham Əliyev qeyd etmişdir ki, ölkəmizdə əldə edilən bütün uğurlarda Yeni Azərbaycan Partiyasının, onun üzvlərinin böyük əməyi, zəhməti və rolu danılmazdır. Partiyanın ölkənin aparıcı siyasi qüvvəsi kimi böyük məsuliyyəti hiss etməsi və onu öz üzərinə götürməsi mərasim iştirakçılarının nəzərinə çatdırılmışdır. Həmçinin, Yeni Azərbaycan Partiyasının dünya miqyasında çox böyük və güclü partiya imicinə malik olması qeyd edilmişdir.

Vurğulanmışdır ki, Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirak edən bir qrup şəxsin təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 18 noyabr tarixli Sərəncamında mükafata layiq görülənlər arasında Yeni Azərbaycan Partiyasının nümayəndələri də yer almışdır.

Qeyd edilmişdir ki, Yeni Azərbaycan Partiyasının sıralarının genişlənməsi ötən il ərzində də davam etmiş, hesabat dövrü ərzində 24 min nəfərdən çox yeni üzv qəbul edilmiş və beləliklə, partiya üzvlərinin sayı 710 min nəfəri keçmişdir. Partiyaya daxil olanların sırasında gənclər və qadınlar üstünlük təşkil etmişdir.

İdarə Heyətinin iclasında YAP-ın ötən ilə dair gəlirləri və xərcləri barədə hesabat dinlənilmişdir. Qeyd olunmuşdur ki, 2017-ci ildə Yeni Azərbaycan Partiyasının gəlirləri 8 315 436 manat olmuşdur. Bunun 7 173 280 manatını üzvlük haqları, 1 142 156 manatını büdcədən siyasi partiyalara ayrılan dövlət dəstəyindən Yeni Azərbaycan Partiyasına düşən pay təşkil etmişdir.

Yeni Azərbaycan Partiyasının hesabına daxil olan maliyyə vəsaitinin 4 202 663 manatı partiyanın İcra Katibliyinin və yerli təşkilatlarının əməkdaşlarının əmək haqqının ödənilməsinə, 713 757 manatı partiya və onun yerli təşkilatlarının, gənclər və qadınlar təşkilatlarının keçirdiyi tədbirlərin maliyyələşməsinə, xeyriyyə aksiyalarına, 42 785 manatı ezamiyyə xərclərinə, 204 302 manatı invertarların alınmasına, 4 419 586 manatı tikinti və təmir işlərinə, 421 317 manatı kommunal və təsərrüfat xərclərinə, 242 535 manatı yanacaq və avtomobillərə xidmət işlərinə, 59 930 manatı bank xidmətinə, 50 385 manatı dəftərxana xərclərinə, 38 285 manatı çap işlərinə, 104 986 manatı isə sair xərclərə sərf edilmişdir. Beləliklə, əvvəlki illərin qalıq hesablarından köçürmələr də daxil olmaqla Yeni Azərbaycan Partiyasının cəmi xərcləri 10 500 531 manat təşkil etmişdir. Hesabat ilinin sonuna partiyanın cari hesablarında və ehtiyat hesabında 6 446 014 manat qalmışdır.

# Qafar Cəbiyev: "Azərbaycan Prezidentinin Sərəncamı özəl televiziya kanallarına qayğının daha bir təzahürüdür"

***Azərbaycan Prezidentinin özəl ümumölkə teleradio yayımçılarına birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında Sərəncamı bir daha göstərdi ki, telekanalların fəaliyyətinin təkmilləşdirilməsi dövlətin diqqətindən kənarda deyil. Bu fikri AZƏRTAC-a açıqlamasında Milli Televiziya və Radio Şurasının sədr müavini Qafar Cəbiyev bildirib.***



Qafar Cəbiyev deyib ki, dövlətimizin başçısının Sərəncamı özəl televiziya kanallarının fəaliyyətinin təkmilləşdirilməsinə daha bir dəstəkdir. 2011-ci ildə özəl televiziyalara 5 milyon, 2013-cü ildə isə 6 milyon manat vəsait ayrıldı ki, bu da telekanalların milli film və seriallarının çəkilməsi işinə dəstək oldu. Həmin vaxtdan etibarən Azərbaycanda xeyli filmlər, seriallar çəkilib və hazırda telekanallarımızda nümayiş olunur. Bu dəfə dövlətimizin başçısının özəl yayım şirkətləri üçün üç milyon manat vəsait ayırması isə kanalların "AZƏRSPACE"ə və digər dövlət qurumlarına borcunun ödənilməsinə kömək məqsədi daşıyır.

Sərəncamda da qeyd olunduğu kimi, qloballaşma proseslərinin intensivləşdiyi müasir dövrdə Azərbaycanda fəaliyyət göstərən kütləvi informasiya vasitələri əhalinin məlumatlandırılması və maarifləndirilməsi, dövlət siyasətinin mahiyyətinin cəmiyyətə çatdırılması, ictimai maraq kəsb edən aktual məsələlərin müzakirəsinin təşkili, ölkəmizin milli maraqlarının müdafiəsinə mühüm töhfə verir. Özəl telekanallar dövlət qurumlarına borclarını ödəməklə yanaşı, tamaşaçı auditoriyasını genişləndirmək üçün verilişlərinin keyfiyyətini artırmalıdırlar. Özəl teleradio yayımçılarının ölkə haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, xalqın mədəniyyətinin və milli mənəvi dəyərlərinin təbliği, cəmiyyətin informasiya ehtiyacının ödənilməsi sahəsindəki fəaliyyətinin stimullaşdırılması, habelə texniki imkanlarının artırılması və əhatə dairəsinin daha da genişləndirilməsi zəruridir.

# "Bu qətnamə saxta və yalan məlumatlara əsaslanır"

"İrqçi təşkilat olan Amerika erməni milli komitəsinin sifarişi ilə irəli sürülən qətnamədə məqsəd hal-hazırda ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə substantiv və intensiv əsasda aparılan danışıqları, regionda davamlı sülh və sabitliyin təmin olunması səylərini pozmaqdır. Bu qətnamə saxta və yalan məlumatlara əsaslanır, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətini təhrif edir". Bunu SİA-ya XİN-in Mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib.



XİN rəsmisi deyib ki, sözügedən əsassız qətnamə təşəbbüsü ilə çıxış edərək konqresmen Frank Pallone Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, ölkəmizin ərazilərinin işğalı və bir milyondan artıq azərbaycanlıya qarşı törədilmiş qanlı etnik təmizləməni, aqressiv separatizmi və ədalətsizliyi dəstəkləyir: "Göründüyü kimi, F.Pallone seçkilərdə ABŞ erməni lobbisinin maliyyə və seçici dəstəyini qazanmaq üçün bu addıma əl atır. O, ABŞ vətəndaşlarını müharibə zonası olan işğal olunmuş ərazilərə səfərə və kriminal-terrorçu rejimlə əlaqəyə çağırmaqla, ABŞ vətəndaşlarının həyatını təhlükə altına qoyur".

Qeyd edək ki, Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti tərəfindən təqdim olunan səyahət xəbərdarlığında ABŞ vətəndaşlarına Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf ərazilərə səfər etməmək barədə ciddi çağırış edilir.

# "The Washington Times": Beş səbəbə görə Azərbaycana getmək mütləq lazımdır

"The Washington Times" qəzetində "Beş səbəbə görə Azərbaycana getmək mütləq lazımdır" sərlövhəli məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, məqalədə Qafqaz dağları ilə Xəzər dənizi arasında yerləşən Azərbaycanın tez-tez "Odlar yurdu", paytaxt Bakının isə "Şərqin Parisi" adlandırıldığı qeyd olunur.




Vurğulanır ki, birinci səbəb regionun digər ölkələri ilə müqayisədə Azərbaycan vizasını asanlıqla almağın mümkünlüyüdür. 2017-ci ilin iyunundan ASAN sistemi vasitəsilə viza almaq müddəti üç gündən üç saata endirilib.

İkinci səbəb ölkənin unikal coğrafi mövqeyidir. Materialda qeyd edilir ki, "mədəniyyətlər və sivilizasiyalar Bakıda görüşür". Yarımadada yerləşən Bakı arzular şəhəridir. Azərbaycan paytaxtında orta əsrlər memarlıq inciləri ultramüasir binalarla, o cümlədən məşhur memar Zaha Hadidin layihəsi əsasında tikilmiş və dünyada tanınan Heydər Əliyev Mərkəzi ilə yanaşı dayanır.

Üçüncü səbəb ölkənin görməli yerləri və təbiətidir. Bakı ilə yanaşı, şəhərin ətrafında da görməli yerlər var. Məsələn, Qobustan Milli Parkına, Suraxanı qəsəbəsində "Atəşgah" məbədinə getmək, palçıq vulkanlarına baxmaq. Zərdüştilik məbədi olan "Atəşgah" Hindistan və dünyanın hər yerindən zəvvarları özünə cəlb edir.

Müəllif dördüncü səbəb kimi ölkənin zəngin idman həyatını qeyd edir. "İdmançılar idman yarışlarında öz istedadlarını göstərmək üçün Azərbaycanı bütün dünyada ideal yer hesab edirlər", - deyə məqalədə bildirilir. Təkcə son illər Azərbaycanda bir neçə beynəlxalq tədbir, o cümlədən Ümumdünya Şahmat Olimpiadası, ilk Avropa Oyunları, gənclər arasında Avropa futbol çempionatı, IV İslam Həmrəyliyi Oyunları, atıcılıq, voleybol üzrə Avropa çempionatları, gimnastika üzrə dünya çempionatı və digər yarışlar keçirilib. Artıq ikinci ildir ki, Formula-1 yarışlarının Qran-Pri mərhələlərindən biri Bakıda keçirilir. Materialda diqqətə çatdırılır ki, tezliklə Bakıda Avropa futbol çempionatının dörd matçı, idman kapoeyrası üzrə dünya çempionatı və digər nüfuzlu tədbirlər keçiriləcək.

Nəhayət, beşinci səbəb yerli və beynəlxalq brendlərin iştirakı ilə alqı-satqı zamanı vergi tutulmayan beynəlxalq ticarət yarmarkalarının keçirilməsidir. Bundan başqa, milli mətbəxin ləziz nemətlərini dadmaq, UNESCO tərəfindən bəşəriyyətin qeyri-maddi mədəni irsi elan edilmiş muğamı dinləmək və bir çox digər səbəblər var ki, onlara görə Azərbaycana getməyə dəyər.

# Azərbaycan xalqının istiqlal və mücadilə yolu

## 1990-cı ilin 20 Yanvar faciəsindən 28 il ötür

XX əsr tarixinə insanlığa və bəşəriyyətə qarşı ən amansız və dəhşətli cinayətlərdən biri kimi düşmüş 1990-cı ilin 20 Yanvar faciəsindən 28 il ötür. Bu tarixi gündə Azərbaycan xalqı əsrlər boyu qəlbində yaşatdığı milli azadlıq və istiqlal istəyindən geri çəkilməyəcəyini, müqəddəs amal uğrunda, hətta canından belə keçməyə hazır olduğunu bütün dünyaya nümayiş etdirdi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş Sovet ordusunun hərbi hissələri Bakı şəhərində azadlıq uğrunda ayağa qalxan dinc əhaliyə qarşı misli görünməmiş qətliam törətdi. Xalqımıza qarşı törədilmiş bu qanlı cinayət, əslində, bəşəriyyətə, humanizmə və insanlığa qarşı həyata keçirilmiş dəhşətli terror aktıdır. Bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi və milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Bu, uzun illər Sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı və öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir. Bu tarix həm də kimin kim olduğunu sübut edən növbəti imtahan idi. Bu qanlı hadisənin törədilməsində əsas məqsədlərdən biri öz haqlı tələblərini irəli sürən, bu tələblərə demokratik yollarla nail olmaq istəyən, istiqlaliyyət, azadlıq, suverenlik istəyində olan Azərbaycan xalqının iradəsini qırmaq və insanların müstəqillik arzularını tankların altında əzmək idi.

Ölkəmizin ən yeni tarixində istiqlal mücadiləsinin dönüş nöqtəsi olan bu gün tariximizin həm qanlı, həm də şanlı səhifəsidir. Həmin gün azadlıq, istiqlaliyyət uğrunda küçələrə və meydanlara çıxan Azərbaycan xalqına qarşı törədilmiş ağlasığmaz terror aktı dəhşətli cinayət hadisəsi kimi tarixə düşdü. Həmin gün müstəqillik istəyi ilə həmrəylik nümayiş etdirən dinc əhaliyə qarşı həyata keçirilən cəza tədbiri Beynəlxalq İnsan Haqları Bəyannaməsinin və bu sahədə qəbul olunmuş digər konvensiyaların müddəalarının kobud şəkildə pozulması demək idi. Artıq çökməkdə olan Sovet rejimi son günlərində bütün tarixi ərzində törətdiyi cinayətlər sırasına misli görünməmiş bir vəhşilik aktı da əlavə etdi.

### İNSANLARI QADAĞAN OLUNMUŞ GÜLLƏLƏRLƏ QƏTLƏ YETİRƏRƏK, BƏŞƏR TARİXİNDƏ GÖRÜNMƏYƏN VƏHŞİLİYƏ ƏL ATDILAR

Torpaqlarının bir qarışını da düşmənə qıymayan xalq ayağa qalxmış və bu ayrı-seçkiliyə və ədalətsizliyə dözməyərək, "Torpaqdan pay olmaz!" deyərək, etiraz səsini ucaltmışdı. 1990-cı il yanvarın 19-da Mixail Qorbaçov SSRİ Konstitusiyasının 71-ci maddələrini kobud surətdə pozaraq, Bakıda fövqəladə vəziyyət elan olunması haqqında fərman imzaladı. Lakin buna baxmayaraq, Bakıda dinc əhaliyə divan tutulması üçün hazırlanmış plan məxfi şəkildə həyata keçirildi. İlk növbədə, Azərbaycan Televiziyasının enerji bloku partladıldı. Bu əməliyyatı SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin "ALFA" qrupu yanvarın 19-da həyata keçirdi. Respublika üzrə televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan olunmasından xəbərsiz əhaliyə amansız divan tutdu. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə təpədən-dırnağa qədər silahlanmış Sovet Ordu hissələri heç bir xəbərdarlıq edilmədən Bakı şəhərinə və Azərbaycanın bir sıra digər rayonlarına yeridilərək, Azərbaycan xalqına vəhşicəsinə divan tutdu. Günahsız insanları tankların altında xıncım-xıncım edərək, qadağan olunmuş güllələrlə qətlə yetirərək, bəşər tarixində görünməyən vəhşiliyə əl atdı. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yanvarın 20-də səhər saat 7.00-da respublika radiosu ilə bildirildi. Buna qədər yüzlərlə insan qətlə yetirilmiş, çoxlu sayda insan isə ağır vəziyyətdə xəstəxanalara yerləşdirilmişdi. Fövqəladə vəziyyətin təbliqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışlar. Fövqəladə vəziyyət elan edildikdən sonra isə, yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində daha 21 nəfər öldürülmüşdür. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda - yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilmişdir. Nəticədə, ölənlərin sayı 147-yə çatdı. 700-dək adam ağır bədən xəsarəti aldı, 800 nəfərdən çox Azərbaycan vətəndaşı qanunsuz həbs edildi. Həlak olan dinc sakinlər arasında uşaqlar, qocalar, gənclər və qadınlar var idi.



### XALQIN HAQQ SƏSİNİ BATIRMAQ ÜÇÜN ÖLKƏMİZƏ 35 MİNLİK ORDU YERİDİLİB

Azərbaycana qarşı soyqırımı həyata keçirmiş Sovet rejiminə qarşı ən kəskin bəyanatı, o vaxt Moskvada yaşayan, ermənilərin fitvası, min hiylə və məkri ilə 1987-ci ildə SSRİ rəhbərliyindən uzaqlaşdırılmış, lakin hələ də təqib və təzyiqlərə məruz qalan Ümummilli Lider Heydər Əliyev verdi. Ulu Öndər faciə törədilməndən bir gün sonra yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, mətbuat konfransı keçirdi, dünyanın bütün kütləvi informasiya vasitələrinin nümayəndələri qarşısında SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı törətdiyi soyqırımı kəskin pislədi, bunu insanlığa və humanizmə sığışmayan hərəkət kimi qiymətləndirdi. Ulu Öndər Heydər Əliyev bu dəhşətli faciəyə siyasi qiymət verilməsini tələb etdi. Təəssüflər olsun ki, Azərbaycanın o vaxtkı rəhbərliyi bu qanlı cinayətin, bilavasitə təşkilatçısı və iştirakçısı olmuş SSRİ rəhbərliyi cinayətkarların məsuliyyətə cəlb olunmasından ötrü heç bir tədbir görməmişdir.

20 Yanvar faciəsinə ilk dəfə Azərbaycan xalqının Xilaskarı və Qurucusu, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə siyasi-hüquqi qiymət verilmişdir. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1990-cı il noyabrın 21-də bu məsələni geniş müzakirə edərək, qanlı hadisəyə siyasi-hüquqi qiymət verdi. Ümummilli Lider Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra bu dəhşətli cinayət hadisəsinə obyektiv qiymət verildi. Məhz Ulu Öndərin təklifi ilə 1994-cü ildə 20 Yanvar hadisələrini yetərincə qiymətləndirmək istiqamətində addımlar atıldı. Vətənin azadlığı və suverenliyi uğrunda şəhid olanlara 20 Yanvar şəhidi adı verildi. Ümummilli Lider 20 Yanvar günü imperiya qoşunları qarşısında mərdi-mərdanə dayanan Azərbaycanın mərd oğul və qızlarının bu dəyanətini çox yüksək qiymətləndirərək demişdir: "1990-cı ilin Qanlı Yanvarında Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalmış Vətən övladları özlərinin fədakarlığı və şəhidliyi ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar. Bu gün Azərbaycan xalqı özünün milli mənliyini qorumaq üçün canlarından keçən övladları ilə fəxr edir".

### XALQIN QANI BAHASINA QAZANILMIŞ MÜSTƏQİLLİK ƏBƏDİ VƏ DAİMİDİR

Hər il yanvarın 20-də Şəhidlər Xiyabanına gələnlər, bir tərəfdən, xəyanət və fəlakətin səbəbkarlarını lənətləyir, digər tərəfdən, qürur hisslərini gizlətmirlər. Axı şəhidlər təpədən- dırnağacan silahlanmış qoşunun qabağından qaçmadı, Vətəni necə sevməyi, azadlıq, müstəqillik uğrunda qurban getməyi göstərdilər və ölümləri ilə ölümsüzlük qazandılar.

20 Yanvar gününün Azərbaycan tarixində ölkəmizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə qəhrəmanlıq rəmzi kimi böyük əhəmiyyəti var. Hər şeydən əvvəl, həmin gün Azərbaycan tarixinə azadlığa aparan yol kimi düşdü. Digər tərəfdən, mənfur qonşumuza - təcavüzkar Ermənistana aydın oldu ki, Azərbaycan xalqı ərazisinin bir qarışını belə digər xalqlara güzəştə getməyəcək. Bu yolda canlarını qurban verəcək, sinələrini sipər edəcək, lakin geriyə dönməyəcək 20 Yanvar şəhidləri kimi.

Şəhidlik, həqiqətən də, qeyrət və hünər zirvəsidir. Hər kəsin də taleyinə bu müqəddəsliyə qovuşmaq yazılmır. Şəhidlər nura qənşər bir yolun əbədi yolçularıdır. Bu gün müstəqil Azərbaycan dövlətinin başçısı İlham Əliyevin rəhbərliyi ilə 20 Yanvar həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması sahəsində ardıcıl iş aparılır. Dünyanın hər bir ölkəsində tədbirlər keçirilir. Vətənimizin müstəqilliyi, azadlığı uğrunda canlarını qurban verən mərd oğul və qızlarımızın əziz xatirələri qəlbimizdə həmişə yaşayacaq. 20 Yanvar faciəsi istiqlaliyyətə can atan xalqımızın mübarizliyini, qəhrəmanlığını, qorxmazlığını və cəsarətini nümayiş etdirdi. Xalqın qanı bahasına qazanılmış müstəqillik əbədi və daimidir. Şəhidlər ölməzdir! Onlar Azərbaycan xalqının Azadlıq hərəkatı tarixini öz qanları ilə yazan ilk qaranquşlar kimi müstəqil dövlətimizin səmasında daim dolaşmaqdadır.

Biz Azərbaycanın ərazi bütövlüyünü Ali Baş Komandan, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə tezliklə bərpa edəcəyik. Erməni işğalının və müharibə vəziyyətinin davam etdiyini nəzərə alan Azərbaycan dövləti öz ordusunun gücünü, hərbi kadrların peşəkarlıq səviyyəsini durmadan artırır və hərbi qüdrətini yüksəldir. Azərbaycan tərəfi açıq bəyan edib ki, sülh danışıqları nəticə verməzsə, münaqişə hərb yolu ilə həll ediləcəkdir. 2016-cı ilin aprel döyüşləri Azərbaycan Ordusunun gücünü ortaya qoymuş oldu. Ermənilərin törətdikləri təxribatların qarşısının alınması zamanı Azərbaycan əsgəri düşmənə ərazilərimizə qarşı hərbi təcavüz siyasətinin davam etdirildiyi illərin ən sərt cavabını verərək, ən ağır zərbəsini vurdu. Azərbaycanın getdikcə artan qüdrətini və gücünü düşmən qovulduğu yüksəkliklərlə və verdiyi itkilərlə gördü.

Azərbaycan Prezidenti İlham Əliyev işğal altında olan torpaqlarımızın geri qaytarılacağını çıxışlarında əminliklə qeyd edir: "Bizim orduda xidmət edən gənclərimiz vətəni ləyaqətlə qoruyurlar və düşmənə çox güclü zərbələr vururlar. Belə də olmalıdır, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və bütün cəmiyyətin diqqəti bu məqsədə yönəlib. Cəmiyyətdə müşahidə olunan həmrəylik və səfərbərlik bizim qələbəmizi şərtləndirən amillərdən biridir, iqtisadi və hərbi gücüdür. Biz istənilən yolla öz ərazi bütövlüyümüzü bərpa edəcəyik".

Gözü yolda qalan torpaqlarımızın düşmən işğalından azad olacağı gün uzaqda deyildi. Zaman yetişəcək, erməni faşistləri zəbt etdikləri torpaqlarımızı, şəhərlərimizi sülh yolu ilə tərk etməsələr, Azərbaycan xalqı və onun rəşadətli ordusu düşməni məhv edərək, öz torpaqlarını azad edəcəkdir. O zaman şəhidlərimizin ruhu şad olacaqdır.

**Nəzakət ƏLƏDDİNQIZI**

# 20 Yanvar Azərbaycan xalqının öz suverenliyi uğrunda mübarizə tarixinin şərəfli səhifəsidir

Yanvarın 19-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) 20 Yanvar Ümumxalq Hüzn Gününə həsr olunmuş anım tədbiri keçirilib. Komitənin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbir ölkəmizin müstəqilliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb. Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı 20 Yanvar hadisələrinin Azərbaycan xalqının azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda mübarizə tarixinin şərəfli səhifəsi olduğunu qeyd edib. O, xalqın canından keçməsi hesabına özünün azadlığı, müstəqilliyi uğrunda mübarizə apardığını, qəhrəmanlıq nümayiş etdirdiyini vurğulayıb.



20 Yanvar faciəsi zamanı həlak olan dinc sakinlərin içərisində azərbaycanlılarla yanaşı, digər xalqların və dinlərin nümayəndələrinin də olduğunu diqqətə çatdıran Mübariz Qurbanlı bununla Azərbaycanın Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdiyini bildirib.

Dövlət Komitəsinin sədri bu qanlı hadisələrə ilk dəfə ulu öndər Heydər Əliyevin hüquqi-siyasi qiymət verdiyini deyib. Bildirib ki, faciənin ertəsi günü ümummilli lider Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək təcavüzə kəskin etirazını bildirib, faciəni törədənləri sərt tənqid edib. Xalqın təkidi ilə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra da 20 Yanvar hadisələrini lazımınca qiymətləndirmək yolunda ciddi addımlar atılıb. Komitə sədri Prezident İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasətin təməl prinsiplərindən birinin Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması olduğunu bildirib. Dövlətimizin şəhid ailələrinə olan xüsusi diqqətindən bəhs edən M.Qurbanlı şəhidlərin xatirəsinin əbədiləşdirilməsi, şəhid ailələrinə göstərilən dövlət qayğısı barədə ətraflı məlumat verib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov xalqımızın tarixinin mühüm səhifəsi olan bu hadisənin milli azadlıq mübarizəmizdə mühüm rol oynadığını bildirib. O vurğulayıb ki, 20 Yanvar qətliamı xalqımızın müstəqillik əzmini qıra bilməyib və Azərbaycanın müstəqillik qazanmasına təkan verib. Şöbə müdiri ümummilli lider Heydər Əliyevin xidmətləri sayəsində bu hadisə haqqında beynəlxalq ictimaiyyətə məlumat verildiyini bildirib. Qeyd edib ki, Ulu Öndər yanvarın 21-də Moskvada keçirdiyi mətbuat konfransında bu vəhşiliyi qətiyyətlə pisləməklə yanaşı, onun başvermə səbəblərini də açıqlayıb, təşkilatçılarının adlarını bütün dünyaya bəyan edib.

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Bakı şəhəri dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Roma Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekturasının ordinarisi Vladimir Fekete, Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, Avropa Yəhudiləri Bakı dini icmasının sədri Aleksandr Şarovski çıxış edərək 20 Yanvar faciəsi ilə bağlı fikirlərini bölüşüb, bu günün təkcə matəm günü yox, həm də qəhrəmanlıq salnaməsi kimi tariximizə həkk olunduğunu bildiriblər.

## Müdafiə Nazirliyi ilə Ombudsman Aparatı arasında birgə tədbirlər planı imzalanıb

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı arasında 2018-ci il üçün birgə tədbirlər planı imzalanıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, plana əsasən keçirilməsi nəzərdə tutulan tədbirlərin icra vaxtı, yeri və məsul şəxslər müəyyən edilib. İl ərzində Müdafiə Nazirliyin tabeliyində olan idarələrdə, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində "Ombudsman təsisatı və hərbi qulluqçuların hüquqlarının müdafiəsi ilə bağlı aparılan işlər" mövzusunda, eləcə də insan hüquqlarının qorunması vəziyyətinin öyrənilməsi ilə əlaqədar şəxsi heyətlə bir sıra görüşlər keçiriləcək. Müxtəlif kateqoriyalardan olan hərbi qulluqçuların və Ombudsman Aparatının hərbi qulluqçuların hüquqlarının müdafiəsi sektorunun əməkdaşlarının iştirakı ilə təşkil olunacaq tədbirlərdə bir çox məruzələr dinləniləcək və fikir mübadiləsi aparılacaq.

## Şahbuzda mədəniyyət evi tikilir

Şahbuz rayonunda inşa olunan mədəniyyət evində və çirkab sutəmizləyici qurğuda tikinti işləri davam etdirilir. AZƏRTAC xəbər verir ki, Şahbuz şəhərində yeni inşa olunan mədəniyyət evində tikinti işlərinə 2017-ci ilin sentyabr ayından başlanılıb. Hazırda binanın ikinci mərtəbəsində betonqəlib işləri görülür.

Bina iki mərtəbədən ibarət olacaq. Burada rayon mədəniyyət və turizm şöbəsinin əməkdaşları üçün iş otaqları, bufet, dekorasiya və məşq otaqları, 280 yerlik tamaşa zalı yaradılacaq. Şahbuz şəhərinin "Ömərdərəsi" massivində inşa olunan çirkab sutəmizləyici qurğuda isə inşaat işlərinə ötən ilin may ayının əvvəllərindən başlanılıb. İnşaat işlərinin əksər hissəsi görülüb. Yaxın günlərdə isə inzibati binanın tikintisinə start veriləcək. İnşaat işləri başa çatdıqdan sonra burada Almaniya istehsalı olan son texnoloji avadanlıqlar qurulacaq. Qurğu istifadəyə verildikdən sonra gündəlik 2 min 800 kubmetr çirkli su təmizlənərək təsərrüfat üçün yararlı vəziyyətə gətiriləcək. Qurğunun tikintisi "Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi" çərçivəsində həyata keçirilir. Layihə çərçivəsində Şahbuz şəhərinin kanalizasiya sistemi də yenilənib, Şahbuz şəhəri, Daylaqlı və Kiçikoba kəndlərinə yeni su xətləri çəkilərək, sakinlər Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su ilə təmin olunub. Qeyd edək ki, hər iki tikintinin 2018-ci ildə başa çatdırılması nəzərdə tutulub.

## ATƏT-in Minsk qrupunun həmsədrləri növbəti bəyanat yayıblar




***ATƏT-in Minsk qrupunun həmsədrləri növbəti birgə bəyanat yayıblar. AZƏRTAC xəbər verir ki, ATƏT-in rəsmi saytında yerləşdirilmiş bəyanatda həmsədrlərin Polşanın Krakov şəhərində yanvarın 17-də Ermənistanın xarici işlər naziri Edvard Nalbandyan, 18-də isə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ilə ayrı-ayrılıqda və birgə görüş keçirdikləri qeyd olunub.***

Görüşdə nazirlər və həmsədrlər Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair əvvəlki görüşlərdə əldə edilmiş razılaşmaların həyata keçirilməsinin asanlaşdırılması üçün növbəti addımları müzakirə ediblər.

Bəyanatda bildirilir ki, xarici işlər nazirləri ATƏT sədrinin şəxsi nümayəndəsinin ofisinin genişləndirilməsinin tez başa çatdırılması üçün həmsədrlərin üzərində yenidən işlədiyi müvafiq konsepsiya sənədi ilə prinsip etibarilə razılaşıblar. Görüşlər zamanı tərəflər və həmsədrlər hazırda gündəmdə olan iş təkliflərindəki əsas həssas məsələlər barədə fikir mübadiləsi aparıblar.

Həmsədrlər danışıqlar prosesinə mühüm töhfə kimi etimad tədbirlərini həyata keçirməyə çağırıblar. Nazirlər və həmsədrlər təmas xəttində nisbi sakitliyin hökm sürdüyünü qeyd edib və həmsədrlər tərəfləri bu müsbət tendensiyanı gücləndirməyə çağırıblar.

Eyni zamanda, həmsədrlər nazirlərə münaqişə təsirinə məruz qalan ərazilərdə 2010-cu il üzrə qiymətləndirmə missiyasını davam etdirmək imkanları barədə gələcək müzakirələrə maraq göstərdiklərini ifadə ediblər.

# "The Jerusalem Post" qəzetinin oxucuları "İslam Həmrəyliyi İli"nin yekunları barədə məlumatlandırılıb

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlının İsrailin "The Jerusalem Post" qəzetində "İslam Həmrəyliyi İli"nin yekunlarına dair müsahibəsi dərc edilib.


THE JERUSALEM POST

GURBANOV RAFI

Mr.Mubariz Gurbanli:"Cultural and religious diversity is our asset"

Azerbaijan is one of the rare countries where there is no any anti-Semitism, xenophobia and Islamophobia have been experienced throughout history. As a land of three Abrahamic religions, followers of Islam, Judaism and Christianity are enjoying right to freedom of religion and conscience.

Mr. Mubariz Gurbanli, chairman of the State Committee on Religious Associations of the Republic of Azerbaijan (SCRA) gave an interview to share a good example of religious harmony in Azerbaijan. SCRA is a state body in charge of implementing public policy on state-religion relations in the country.

Rafi Gurbanov: Which factors make the religious solidarity necessary today?

Mubariz Gurbanli: Today the social-political tensions in the world have reached the

Sponsored Articles

The wealthy are building homes bigger than ever

Which Evil Character Are You?

Sara Netanyahu's last try at getting A-G to drop indictment set for today

Dövlət Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müsahibədə beynəlxalq terrorizmin, separatizmin, dini ekstremizmin, milli, etnik və dini münaqişələrin baş verdiyi müasir dövrdə dünyada təhlükəsizliyi, insanların sülh içində yaşamasını təmin etmək məqsədilə tolerant və multikultural dəyərlərin təbliğ edilməsi, dinlər, mədəniyyətlər, siyasi sistemlər arasında əməkdaşlığın qurulması istiqamətində Azərbaycanda görülən işlərdən bəhs olunub. Qeyd edilib ki, 2016-cı ilin ölkəmizdə "Multikulturalizm İli", 2017-ci ilin isə "İslam Həmrəyliyi İli" elan edilməsi böyük ictimai-siyasi əhəmiyyət daşıyır və bu, təkcə müsəlman dünyasına deyil, eyni zamanda, bəşəriyyət üçün həmrəylik çağırışıdır.

Dövlət Komitəsinin sədri "İslam Həmrəyliyi İli" çərçivəsində DQİDK tərəfindən görülən çoxşaxəli işlər haqqında danışıb. Ötən il Bakıda "2017-İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda 40-a yaxın ölkədən 150-dək nümayəndənin, o cümlədən tanınmış dövlət, din və elm xadimlərinin, beynəlxalq təşkilatların rəhbərlərinin və təmsilçilərinin, müxtəlif ölkələrin dövlət başçılarının xüsusi nümayəndələrinin, dini konfessiya rəhbərlərinin, hökumət və parlament üzvlərinin, diplomatik korpus və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilmiş beynəlxalq konfransın nəticələrindən bəhs edən müsahib paytaxtımızın son illər bu sahədə beyin mərkəzinə çevrildiyini vurğulayıb.

M.Qurbanlı onu da bildirib ki, ötən il Dövlət Komitəsi tərəfindən maarifləndirici xarakterli 80 müxtəlif adda dini təyinatlı ədəbiyyat nəşr edilib, dini fanatizm, radikalizm və ekstremizm meyillərinə qarşı mübarizə mahiyyəti daşıyan "Şəhadət" filmi geniş auditoriyaya nümayiş etdirilib. 2018-ci ildə isə "Üfüqdəki gələcək" və "Vəhdət" adlı sənədli filmlər hazırlanaraq təqdim olunacaq.

Prezident İlham Əliyevin Fərmanı ilə DQİDK-nın tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması milli mənəvi dəyərlərimizin və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində atılan böyük addım olduğunu diqqətə çatdıran M.Qurbanlı Fondun fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib. Qeyd edib ki, islami dəyərlərin ən yüksək səviyyədə yaşandığı ölkəmizdə yüzilliklərdən bəri müxtəlif dinlərin və millətlərin nümayəndələrinin sülh, qarşılıqlı hörmət və həmrəylik şəraitində yaşaması, dinindən, məzhəbindən, dilindən, irqi mənsubiyyətindən asılı olmayaraq burada məskunlaşmış insanların milli mənəvi dəyərlərini, dini ayinlərini, adətlərini, bayramlarını sərbəst şəkildə icra etməsi, fərqli mədəniyyətlər arasında heç bir münaqişə baş verməməsi və s. bu kimi faktlar mədəni və dini müxtəlifliyin Azərbaycanın xəzinəsi olduğunu fəxrlə deməyimiz üçün əyani sübutlardır.

# Pakistanın "National Herald Tribune" qəzetində 20 Yanvar faciəsi ilə bağlı məqalə verilib

***Pakistanın "National Herald Tribune" qəzetində "20 Yanvar - Qara Yanvar və Azərbaycanın müstəqilliyi" sərlövhəli məqalə dərc olunub.***


2 CURRENT AFFAIRS National Herald Tribune

KPK Secretary Information Qaiser Alam Khan meeting with a delegation of CPNE.

AJK has huge potential for investment: President AJK

Passenger train service between Pakistan, Iran likely to resume before Muharram

Anti-state elements cannot deter our resolve to end polio from Pakistan

CM KPK asks high ups of Excise dept and KPRA to initiate revolutionary measures for vivid enhancement in revenues of the province

A group photo of Guest Javed Chaudhry with DIG NH&MP North Zone Abbas Ahsan and other senior officers on the event "An Hour with Guest".

One-Day Media Workshop on 'Foreign Policy and Diplomacy' concluded

Net metering is the best and cheep alternative source of energy: IESCO Chief

President FAPUSA calls upon Rector IIUI

IESCO power shut down notice

January 20-Black January and Azerbaijan's independence

Raja Javed Ali Bhatti

National Herald Tribune, Friday, January 19, 2018

AZƏRTAC xəbər verir ki, yazıda 20 Yanvar faciəsinin yaranma səbəbləri haqqında məlumat verilir. Azərbaycan xalqına "dərs vermək" məqsədilə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə 26 minlik, əsasən ermənilərdən ibarət olan sovet qoşununun Bakıya yeridildiyi, dinc əhalini atəşə tutduğu, tanklarla qarşısına keçən hər şeyi əzib keçdiyi bildirilir. Bu qanlı və dəhşətli hadisə nəticəsində aralarında qadın və uşaqların, Bakıda yaşayan digər millətlərin nümayəndələrinin də olduğu 130-dan çox insanın şəhidlik zirvəsinə yüksəldiyi, 700 nəfərin yaralandığı və 841 nəfərin həbs edildiyi vurğulanır. Qeyd olunur ki, o vaxt Moskvada yaşayan ulu öndər Heydər Əliyev bütün təzyiqlərə baxmayaraq Azərbaycanın Moskvadakı nümayəndəliyinə gedərək faciənin baş verməsində Mixail Qorbaçov başda olmaqla sovet rəhbərliyini açıq şəkildə ittiham edib və hadisəni dünya ictimaiyyətinin diqqətinə çatdırıb.

Məqalədə 1990-cı il yanvarın 22-də bir milyondan çox insanın şəhidləri dəfn etmək üçün küçələrə çıxdığı və bundan sonra Azərbaycanda 40 günlük matəm elan olunduğu diqqətə çatdırılır və bunun Azərbaycan neftindən asılı olan Sovet iqtisadiyyatına ciddi zərər yetirdiyi bildirilir. Həmçinin hadisəyə beynəlxalq reaksiyaya da toxunulur və beynəlxalq təşkilatların hesabatları vurğulanır. Müəllif 20 Yanvar hadisələrinin Azərbaycan tarixində dönüş və qurur nöqtəsi olduğunu bildirir, təzyiqlərə və çətinliklərə baxmayaraq Azərbaycan xalqının əzmlə mübarizə apardığına və nəticədə 1991-ci ildə öz müstəqilliyinə qovuşduğuna diqqət çəkir. Sonda bildirilir ki, Azərbaycan Prezidentinin Sərəncamı ilə 20 Yanvar şəhidlərinin ailələri dövlət himayəsinə götürülüb, xalq öz qəhrəman oğul və qızlarını unutmayıb və hər il yüz minlərlə insan Şəhidlər Xiyabanına gedərək onların ruhuna ehtiramını bildirir.

# "Milliyyət" qəzeti: Qorbaçovun 20 Yanvar faciəsi barədə etirafı Azərbaycana qarşı törədilmiş cinayətlərin mahiyyətini dəyişmir

Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri, professor Akkan Suver Türkiyənin çoxtirajlı "Milliyyət" qəzetində 20 Yanvar faciəsi ilə bağlı "Bir dramın ildönümü" sərlövhəli məqalə ilə çıxış edib. AZƏRTAC xəbər verir ki, məqalədə 28 il əvvəl Sovet İttifaqı rəhbərliyinin Azərbaycana qanunsuz olaraq qoşun yeritməsi barədə türkdilli oxuculara müfəssəl məlumat verilir. Müəllif əsaslandırır ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda törədilmiş hərbi cinayət Azərbaycana qarşı yeni işğalçılıq cinayəti kimi tarixə düşüb. İki il sonra törədilən Xocalı soyqırımı da bu cinayətin davamı idi.


Milliyet BASINDA GÜVEN www.milliyet.com.tr

19 Ocak 2018

Düşünenlerin düşüncesi

BİR DRAMIN YIL DÖNÜMÜ

Dr. Akkan Suver

Keçmiş sovet imperiyasının sonuncu rəhbəri Mixael Qorbaçov İstanbulda "Bakıda fövqəladə vəziyyət elan etmək və şəhərə qoşun yeritmək mənim ən böyük siyasi səhvimdir",- desə də bu etiraf tarixin acısını və həmin hadisə əsasında Azərbaycanda baş verən sonrakı faciə və fəlakətlərin mahiyyətini dəyişmir. Qanlı Yanvar gününü "qərənfillərin ağladığı gecə" kimi dəyərləndirən müəllif məqalədə erməni millətçi dairələrinin XX əsr boyunca Azərbaycan xalqına qarşı törədikləri digər cinayətlərə də nəzər salıb.

# Yanvarın 20-də paytaxtın bəzi küçə və prospektlərində nəqliyyatın hərəkəti məhdudlaşdırılacaq

Yanvarın 20-də paytaxtın bəzi küçə və prospektlərində nəqliyyatın hərəkəti məhdudlaşdırılacaq. Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi, polis polkovniki Vaqif Əsədov AZƏRTAC-a bildirib ki, Azərbaycan xalqının tarixi yaddaşına həkk edilmiş 20 Yanvar faciəsində şəhid olanların əziz xatirəsinin yad edilməsi məqsədilə keçiriləcək mərasimlə əlaqədar Parlament prospekti istiqamətində bütün avtomobillərin hərəkətinə məhdudiyyət qoyularaq istiqamət dəyişdiriləcək. Bununla əlaqədar, yanvarın 20-də səhər saat 8.00-dan şəhidlərin xatirəsini yad edən hərəkat iştirakçılarının rahat, təhlükəsiz və fasiləsiz hərəkətinin təşkil edilməsi məqsədilə Mehdi Hüseyn küçəsi, Teleteatr 1 ünvanından, yəni, Teleteatr binasının yanından, Mikayıl Müşfiq küçəsi ilə Hüseyn Cavid prospektinin kəsişməsindən, Mətbuat prospekti Mikayıl Müşfiq dairəsindən, eyni zamanda, Milli Məclisin inzibati binasının arxasından - İzzət Nəbiyev-Abbasqulu Abbaszadə küçələrinin kəsişməsindən Parlament prospekti-Şəhidlər xiyabanı istiqamətində bütün avtomobillərin hərəkətinə tam məhdudiyyət qoyularaq istiqamət dəyişdiriləcək.



Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsi tədbir başa çatana qədər bu istiqamətdə avtomobillərin hərəkətinin mümkünsüzlüyünü nəzərə alaraq əhalidən, avtomobil sahiblərindən və sürücülərdən xahiş edir ki, alternativ yollardan istifadə etsinlər, ziyarətə gələnlər isə ictimai nəqliyyata üstünlük versinlər.

# 20 Yanvar faciəsi Azərbaycan xalqının azadlıq mübarizəsində şərəfli yer tutur

*- Nizami müəllim, xalqımız bu günlər 20 Yanvar faciəsinin 28-ci ildönümünü anır, şəhidlərimizin əziz xatirəsini böyük ehtiramla yad edir. Sizcə, 20 Yanvar hadisəsinin Azərbaycan tarixində yeri və rolu nədən ibarətdir?*

- 20 Yanvar faciəsi Azərbaycan xalqının azadlıq mübarizəsində şərəfli yer tutur. Bilirsiniz ki, o dövrdə sovet imperiyasında xalqların müxtəlif formalarda bu sistemə qarşı etirazları baş qaldırmışdı. İmperiyanın rəhbərliyi isə müxtəlfi vasitələrlə insanları qorxutmağa, susdurmağa çalışırdı. Bu məqsədlə qırğınlar törətməkdən də çəkinmirdilər.

20 yanvar hadisələri ərəfəsində də Sovet İttifaqı Kommunist Partiyasının rəhbərliyinin xalqın, mənafeyinə zidd olan siyasəti, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı Moskvanın, şəxsən Mixail Qorbaçovun apardığı məkrli xətt geniş xalq kütlələrinin qəzəbinə səbəb olmuşdu. Respublikada belə bir fikir mövcud idi ki, Azərbaycanın rəhbərliyi Dağlıq Qarabağ məsələsində Moskva ilə sövdələşərək öz xalqına qarşı gizli xəyanətkar planlar həyata keçirir. Azərbaycan rəhbərləri öz yarıtmaz və yararsız fəaliyyəti ilə xalqla hakimiyyət arasında keçilməz uçurum yaratmışdı. Məhz həmin dövrdə bir neçə ay Bakıda və respublikamızın digər şəhər və rayonlarında keçirilmiş izdihamlı mitinqlərdə Azərbaycan rəhbərliyinin istefası tələb olunurdu. Cəmiyyətdə yaranmış qarşıdurmanın siyasi yollarla tənzimlənməsi üçün Azərbaycan SSR-in rəhbərliyi mövcud imkanlardan istifadə etmədi. Bir çox taleyüklü məsələnin həllində Azərbaycan rəhbərliyi aciz olmuş, nəticədə respublikada kəskin hakimiyyət böhranı yaranmışdı.

20 yanvara qədər partiya, dövlət orqanları tərəfindən həyata keçirilən tədbirlərin, eləcə də Bakıda gedən ziddiyyətli proseslərin təhlili göstərir ki, yanvar faciəsi qabaqcadan planlaşdırılmış hərbi əməliyyatın nəticəsi olmuşdu. 1989-cu ilin axırından yanvar hadisələrinə kimi respublika rəhbərlərinin imzaları ilə Moskvaya ünvanlanan şifroqramlar buna əsaslı sübutdur. Şifroqramlarda Bakıya əlavə daxili qoşun və Sovet ordusu qüvvələrinin göndərilməsi tələb olunmuşdu. Bu səbəbdən, Bakıda hərbi qüvvələrin yerləşdirilməsi və təminatı ilə ələqədar müxtəlif hazırlıq işləri aparılmış, hadisələrə bir neçə gün qalmış Bakı şəhərinin xəstəxanaları tələsik boşaldılmış, külli miqdarda yaralıların yerləşdirilməsi üçün hazırlıq görülmüş, Sovet ordusu hərbi qulluqçularının ailə üzvləri təcili surətdə Bakı şəhərindən köçürülmüşdü. Beləliklə, hərbi təcavüz və qoşunların yeridilməsi üçün hər cür şərait yaradılmışdı. Qoşunların Bakıya yeridilməsi kommunist rejimini saxlamaq, milli azadlıq hərəkatını boğmaq məqsədinə xidmət edirdi.



**Azərbaycan Atatürk Mərkəzinin rəhbəri, Milli Məclisin deputatı Nizami Cəfərovun yap.org.az-a müsahibəsi**

20 Yanvar faciəsi beynəlmiləlçilik və xalqlar dostluğu pərdəsi altında fəaliyyət göstərən SSRİ adlanan bir imperiyanın mahiyyətini açdı, bu dövlətə az-çox inanan insanların inamını sarsıtdı. Xalqın iradəsini qırmaq məqsədilə törədilmiş bu qanlı terror Azərbaycan xalqının milli-azadlıq və müstəqillik uğrunda apardığı hərəkata gücdü təkan verdi və respublikada siyasi mübarizə yeni bir mərhələyə daxil oldu. Haqqın, ədalətin müdafiəsi yolunda canlarını qurban vermiş vətən övladları şəhidlik zirvəsinə ucalmaqla xalqımızın qəhrəmanlıq tarixinə yeni, parlaq səhifələr yazdılar və bununla da 20 yanvar tarixini şərəf və ləyaqət tarixinə çevirdilər.

Azərbaycanın istiqlalı uğrunda canlarını qurban verən şəhidlərimizin əbədi heykəli hər bir azərbaycanlının ürəyində ucalır. Xalqımızın ziyarət yerinə çevrilmiş Şəhidlər Xiyabanında yanan əbədi məşəl şəhidlərin ruhuna xalqımız tərəfindən olan ehtiram və dövlətimiz tərəfindən verilən qiymətdir.

***- O dövrdə Ümummilli liderimiz Heydər Əliyev Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək 20 Yanvar faciəsi ilə bağlı çıxış edərək Sovet rejiminin xalqımıza qarşı törətdiyi cinayəti bütün dünyaya bəyan etdi. Bu bəyanatın tarixi əhəmiyyəti haqqında fikirlərinizi bilmək istərdik...***

- Əlbəttə ki, Ümummilli lider Heydər Əliyevin bəyanatı tarixi əhəmiyyətə malikdir. Çünki sovet rejimi özünün törətdiyi qanlı hadisələri gizlətməyə çalışırdı. Ona görə də, Azərbaycanı informasiya blokadasında saxlayırdı və ölkədən kənara bu qırğın haqda məlumat çıxmasına imkan vermirdi. Belə bir şəraitdə Ümummilli liderimizin bəyanatı müstəsna əhəmiyyət kəsb edirdi. Bilirsiniz ki, Heydər Əliyev uzun illər Azərbaycana rəhbərlik etmişdi və hər zaman Azərbaycanda gedən prosesləri izləyirdi. 20 Yanvar hadisələri ərəfəsində Ulu öndər Heydər Əliyev Moskvada təcrid vəziyyətində yaşayırdı. Heydər Əliyev böyük lider kimi Azərbaycana qayıdıb yenə də xalqa xidmət göstərmək istəyirdi. Amma nə Moskva, nə də Azərbaycanın rəhbərliyi buna imkan vermirdi. Əlbəttə ki, o dövrdə başlayan azadlıq mübarizəsinin önündə Heydər Əliyev kimi böyük lider və siyasətçi getsəydi, proseslər tamamilə xalqımızın xeyrinə olacaqdı, Qarabağ məsələsində ermənilər öz məqsədlərinə nail ola bilməyəcəkdilər. Yəni, Heydər Əliyevin rəhbərliyi ilə azadlıq mübarizəsinin qarşısını heç bir qüvvə ala bilməzdi və bu mübarizədə haqqında danışdığımız faciə də olmayacaqdı. Ona görə də, rəhbərlik çalışırdı ki, Heydər Əliyev mümkün qədər bu hərəkatın rəhbərliyindən kənarda qalsın.

Bütövlükdə, 20 Yanvar faciəsi ilə bağlı Ulu öndərimizin Moskvada verdiyi bəyanat Azərbaycanın müstəqillik tarixinin ən böyük aktlarından biridir. 1990-cı illərin əvvəlində baş verən hadisələr də göstərdi ki, Heydər Əliyev böyük siyasi liderdir və məhz bu millətin lideridir. Xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyev tez bir zamanda doğma Vətəni təlatümdən, parçalanmaqdan xilas etdi.

***- 20 Yanvar hadisələrinə hüquqi-siyasi qiymət də Ümummilli liderimiz Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə verildi. Bu barədə nə deyə bilərsiniz?***

- Hüquqi-siyasi qiymət ümumiləşmiş formada bundan ibarət idi ki, sovet rəhbərliyi Azərbaycan xalqına qarşı qanlı qırğın törədib. Əlbəttə, hadisənin günahkarlarının da adları açıqlanıb. Moskvanın təcavüzünün qarşısı alınmalıydı, o zamankı respublika rəhbərliyi bu qırğına imkan verməməliydi. Bu hadisəyə görə o dövrdə xalqın azadlıq hərəkatına rəhbərlik edənlər də məsuliyyət daşıyırdı.

1994-cü ildə Milli Məclis tərəfindən bu barədə müvafiq sənəd qəbul olunub. Bu sənəddə hadisənin yaranma səbəbləri, məqsədi, onun iştirakçıları, bu qırğına rəhbərlik edənlər və s. bütün təfsilati ilə əksini tapır. Yəni, bu sənəd 20 Yanvar faciəsi ilə bağlı tariximizdə daim mühüm yer tutacaq. Gələcək nəsillərin, elm adamlarının, eləcə də, bu hadisə ilə maraqlanan əcnəbilərin istinad edəcəyi bir sənəd olaraq həmişə özünün önəmini qoruyacaq.

***- Nizami müəllim, Azərbaycan hökuməti şəhid ailələrinə lazımi diqqət göstərir, onların qayğıları ilə daim maraqlanır. Sizcə, cəmiyyətimiz tərəfindən bu təbəqəyə münasibət necədir?***

- Əlbəttə ki, bütün şəhidlərimiz xatirəsi daim anılmalı, onların ailələri diqqət mərkəzində olmalıdır. Çünki şəhidlər milli iftixarımızdır. Qeyd edim ki, 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra Ulu öndər Heydər Əliyev bu məsələni diqqət mərkəzində saxlayırdı. 20 Yanvar şəhidlərinin adları əbədiləşdirildi, onların ailələri qayğı ilə əhatə olundu. Bu gün Prezident İlham Əliyev tərəfindən bu kurs davam etdirilir və 20 Yanvar şəhidlərinin ailələrinin sosial müdafiəsi daim diqqət mərkəzində saxlanılır.

Bilirsiniz ki, Prezident İlham Əliyev tərəfindən davamlı olaraq şəhid ailələrinə və 20 Yanvar faciəsi zamanı əlil olmuş şəxslərə verilən Prezident təqaüdləri artırılır. Bu qərarlar bütün cəmiyyətimiz tərəfindən yüksək qarşılanır. Çünki şəhidlərin xatirəsinin daim uca tutulması cəmiyyətimizdə vətənpərvərlik ruhunun daim yüksəlməsi üçün mühüm rol oynayır. Ona görə də, cəmiyyətimizdə şəhidlərimizə və onların ailələrinə hər zaman yüksək ehtiram bəslənilir.



## Baş prokuror Qobustanda vətəndaşları qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılaraq vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, baş prokuror Zakir Qaralov yanvarın 19-da Qobustan Rayon Prokurorluğunun inzibati binasında Qobustan, Göyçay, Kürdəmir, Şamaxı, İsmayıllı və Ağsu rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl baş prokuror Zakir Qaralov və Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək dahi şəxsiyyətin əziz xatirəsini ehtiramla yad ediblər. Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə ələqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda 23 vətəndaş qəbul edilib. Onların müraciətlərində qaldırılan məsələlərin bir qismi elə yerindəcə həllini tapıb.

Qəbul zamanı, həmçinin müraciətlərdə qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun ələqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verilib.

Vətəndaşlar bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını bildirərək göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

## "ASAN xidmət" və "ASAN kommunal" mərkəzlərində qeyri-iş günü olacaq

20 Yanvar - Ümumxalq Hüzn Günü ilə əlaqədar "ASAN xidmət" və "ASAN kommunal" mərkəzlərində qeyri - iş günü olacaq. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən AZƏRTAC-a verilən məlumata görə, yanvarın 21-dən etibarən isə vətəndaşlar "ASAN xidmət" mərkəzlərinə müraciət etməklə müvafiq xidmətlərdən yararlana biləcəklər.

# 1990-cı ilin yanvar hadisələri: ermənilərin Naxçıvanı işğal etmək planı necə pozuldu?



***20 Yanvar faciəsi ərəfəsində hiyləgər düşmən Naxçıvan Muxtar Respublikasını işğal planlarını həyata keçirməyə cəhd göstərirdi. Belə ki, 1989-cu il dekabrın 14-də ermənilər tərəfindən güclü atəşə tutulan Sədərək, Günnüt və Havuş kəndləri 1990-cı il yanvarın 19-da səhər saat 11 radələrindən etibarən daha intensiv hücumlara məruz qaldı. O vaxt ermənilər əsas qüvvələrini Sədərək istiqamətinə yönəltmişdi. Həmin gün Sədərək ilk dəfə top atəşinə tutuldu. Ermənilərin yanvarın 19-da ciddi cəhdlə bütün istiqamətlərdə muxtar respublikaya hücum etməsi isə onu göstərirdi ki, xain qonşularımız Bakıya qoşun yeridiləcəyindən və bununla da Naxçıvanın köməksiz qalacağından xəbərdar olublar. Bu isə SSRİ rəhbərliyinin çirkin planının tərkib hissəsi idi.***



## Naxçıvanlılar qədim diyarın müdafiəsi uğrunda yumruq kimi birləşdilər

Həmin ərəfədə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Kərki kəndi SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun köməyi ilə ermənilər tərəfindən işğal olundu. Kərki və Sədərəyin müdafiəsi uğrunda gedən döyüşlərdə şəhid olanların sayı saatbasaat artırdı. Məhərrəm Seyidov, Etibar Əhmədov, Məhəmməd Məmmədov, Abbasəli Nəzərəliyev, İdris Məmmədov kimi igidlər ağır döyüşlərdə qəhrəmancasına həlak oldular. Bütün bunlara baxmayaraq, ermənilər gözləmədikləri müqavimətə rast gəldilər və Sədərəyin müdafiə xəttini keçə bilmədilər. Naxçıvanlılar bir yumruq kimi birləşərək qədim diyarın müdafiəsində iştirak etdilər. Bu vəziyyət sovet rəhbərliyini də çaş-baş saldı.

Həmin günlərdə silah-sursat az olsa da, naxçıvanlılar bir addım belə geri çəkilmək barədə düşünmürdülər. Qəhrəman sədərəklilərin kişisi də, qadını da, uşağı da, qocası da torpaq uğrunda ölməyə hazır idi. Hər kəsin ümumi fikri bu idi ki, sona qədər döyüşəcək, ölsək də, bir qarış torpağı düşmənə verməyəcəyik. Belə də oldu.

Qeyd etdiyimiz kimi, yanvarın 18-dən 19-na keçən gecə baş verən döyüşlərdə ən böyük problem silah çatışmazlığı idi. Əhali müdafiə olunmaq üçün silaha böyük ehtiyac duyurdu. Əldə olan silah isə əsasən ov tüfəngləri idi. Sədərəklilər əllərinə balta alaraq düşmənə müqavimət göstərməyə hazırlaşırdılar. İlk köməyə Ordubad və Şərur rayonlarından 40 könüllü gəldi. Çox qısa zamanda muxtar respublikanın bütün bölgələrindən onlarla könüllü Sədərəyin müdafiəsinə qoşuldu. Naxçıvanlılar bir yumruq kimi birləşdilər. Həmin dövrün şahidlərinin sözlərinə görə, Qızıldaşda ermənilər 14 yerdə top qoymuşdular. Sədərək oradan güclü top atəşinə tutulurdu. Naxçıvanlılar isə 2 ədəd “TOZ-8”, 2 ədəd pulemyot, 4 ədəd ov silahı ilə ermənilərin qarşısını alırdı.

## Düşmən gülləsinə ilk tuş gələn sədərəkli iki azyaşlı - Malik və Elvin qardaşları oldu

Şiddətli döyüşlərin getdiyi bir vaxtda rayon ərazisindəki Əyyub mağarası, Cin təndiri, Yetimlər, Həsənqulu bağı, Qaraağac, Qurdbaba, Nadirin düzü kimi ərazilər naxçıvanlıların səngərinə çevrilmişdi. Düşmən gülləsinə ilk tuş gələn sədərəkli iki qardaş - Malik və Elvin oldu. Onlar hələ məktəbə də getmirdilər. Naxçıvanlıların güc










aldıqları yeganə qüvvə ulu öndər Heydər Əliyev idi. Doğma yurda qayıdan Ulu Öndərin döyüşlərin davam etdiyi illərdə dəfələrlə Sədərəyə gəlməsi, bölgə sakinlərinin yanında olması təkcə Sədərəyi deyil, bütün Naxçıvanı erməni işğalından qorudu. Naxçıvanlılar dahi şəxsiyyətin ətrafında sıx birləşdilər, düşmənə müqavimət göstərdilər.1990-cı ilin yanvar döyüşlərində Sədərəyin düşmənə ciddi müqavimət göstərməsinin əsas səbəbi əhalidə vətənpərvərlik hisslərinin, Vətənə bağlılığın yüksək olması idi. Bu hisslər könüllülərə güc, qüvvət verirdi. Ümummilli lider Heydər Əliyev Naxçıvana gələndən sonra əhali artıq tam əmin idi ki, düşmən qalib gələ bilməyəcək. Çünki həmin vaxtdan sonra Naxçıvanda ordu quruculuğuna başlanıldı. Bu, naxçıvanlılara cəsarət verdi, səngərlərdə daha inamla dayandılar, düşmənə həddini bildirdilər. Bir sözlə, Sədərək məğlubedilməzlik simvoluna çevrildi.

**Naxçıvan MSSR Ali Sovetinin SSRİ-nin tərkibindən çıxmaq haqqında qərarı dünyanın diqqətini bu qədim diyara yönəltdi**

Yanvar hadisələri zamanı Naxçıvanda sovet ordusunun erməni hərbi birləşmələrinə dəstək verməsinə, SSRİ rəhbərliyinin təcavüzkar hərəkətlərə göz yummasına qarşı ciddi etiraz dalğası yarandı. 1990-cı il yanvarın 19-da təkcə sovet rəhbərliyini deyil, bütün dünyanı təəccübləndirən növbəti hadisə baş verdi. Naxçıvan Muxtar Sovet Sosialist Respublikası (MSSR) SSRİ-nin tərkibindən çıxdığını bildirərək, özünü müstəqil respublika elan etdi. Naxçıvan MSSR Ali Sovetinin qərarında qeyd olunurdu ki, bu qərar muxtar respublikanın ərazi bütövlüyü və vətəndaşlarının həyatı təhlükə qarşısında qaldığı və beynəlxalq hüquqi qüvvəsi olan Qars müqaviləsinin şərtləri kobud şəkildə pozulduğu üçün qəbul edilib. Qərarda Azərbaycanın ovaxtkı kommunist rəhbərliyinin Naxçıvana qarşı erməni təcavüzünə biganə qalması da buna səbəb kimi göstərilirdi.

Ulu öndər Heydər Əliyev 1998-ci il yanvarın 14-də Azərbaycan Respublikası Konstitusiya Komissiyasının iclasında çıxışı zamanı Naxçıvan Muxtar Respublikasının statusuna münasibət bildirərkən demişdi: "1990-cı il yanvarın 19-da Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Naxçıvanın Sovetlər İttifaqının tərkibindən çıxması haqqında qərarı, mən hesab edirəm ki, tarixi bir əhəmiyyət kəsb edibdir. Doğrudur, Azərbaycanın Ali Soveti yanvarın 29-da bu qərarı ləğv edibdir. Amma bu, tarixdə qalan bir hadisədir. Naxçıvan Muxtar Respublikasının insanları və Ali Sovetdə təmsil olunan adamlar öz iradələrini ifadə ediblər. Nəyə görə? - Azərbaycana qarşı edilən ədalətsizliyə görə.

Naxçıvana Ermənistan tərəfindən hücumlar edilmişdi. O vaxt Kərki kəndi əldən getmişdi, başqa kəndlərə hücumlar edilmişdi. Hələ Ermənistanda, həm də Naxçıvanda olan sovet qoşunları da naxçıvanlıları müdafiə etməmişdilər - baxmayaraq ki, orada həddindən çox sovet qoşunları var idi. Ona görə də naxçıvanlıların başqa əlacı olmamışdı, qərar qəbul etmişdilər".

Naxçıvan MSSR Ali Sovetinin qəbul etdiyi qərar o gecə və sonrakı günlərdə dünyanın nəzərlərini Moskvanın xalqımıza qarşı törətdiyi hərbi-siyasi cinayətlərə, ermənilərin Naxçıvana təcavüzünə yönəltdi. Ən əsası isə dağılmaz deyilən qüdrətli Sovet İttifaqının çöküşü də məhz yanvarın 19-da Naxçıvandan elan edilmiş oldu.

Qanlı Yanvar qırğınından sonrakı dövr - 1990-cı ilin fevral-may ayları da blokada vəziyyətində olan Naxçıvanda çox gərgin keçdi. Biçənək, Şada, Gərməçataq, Sədərək, Havuş kəndləri erməni hücumlarına məruz qaldı. 1990-1993-cü illərdə ermənilərin 14 hücumu zamanı Sədərək 109 şəhid verdi...

**Düşmənə göz dağı olub Naxçıvan**

Vaxtilə şiddətli döyüşlərin getdiyi bir məkanda bu gün gözoxşayan bir qəsəbə - möhtəşəm Heydərabad qəsəbəsi ucaldılıb. Bir vaxtlar işğalçı Ermənistanın zəbt etmək istədiyi Azərbaycanın strateji məntəqəsi muxtar respublika rəhbərinin diqqət və qayğısı ilə sürətlə inkişaf etdirilərək düşmənə gözdağına çevrilib.

Bu gün sədərəklilər evlərində rahat, təhlükəsiz bir şəraitdə yaşayır, muxtar respublikamızın inkişafına öz töhfələrini verirlər. Çünki ötən əsrin 90-cı illərində Naxçıvanın müdafiəsində öz sözünü demiş bu yurd yeri bu gün də igid, qəhrəman əsgərlərimiz tərəfindən göz bəbəyi kimi qorunur. Burada xidmətin günün tələbləri səviyyəsində təşkili üçün hər cür şərait yaradılıb, maddi-texniki baza tələb olunan səviyyədə möhkəmləndirilib, həyata keçirilən kompleks tədbirlər hərbçilərin döyüş qabiliyyətinin və mənəvi-psixoloji səviyyəsinin yüksəlməsinə səbəb olub. Doğma Naxçıvanımızın keşiyində dayanan Əlahiddə Ümumqoşun Ordu bu gün istənilən hərbi vəzifəni yerinə yetirmək qüdrətindədir.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dediyi kimi: "Ordu quruculuğu sahəsində aparılan islahatlar, Naxçıvanda Əlahiddə Ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir. Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan ordusu bu gün güclü ordudur. Naxçıvan ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır".

Bu gün Sədərəkdə ötən əsrin 90-cı illərində baş verən hadisələrin yenidən təkrarlanması mümkün deyil. Çünki bu gün Naxçıvan əvvəlki kimi təklənmiş, unudulmuş Naxçıvan deyil. Bu gün Naxçıvan sürətlə inkişaf etmiş, vətənpərvərlik yanğısı ilə yenidən ucaldılmış, düşmənə göz dağına çevrilmiş qüdrətli Naxçıvandır. Bu gün ermənin işğalçılarının başı üstündə asılan "Damokl qılıncı" adlandırılan Naxçıvan ordusu Ali Baş Komandanın bütün əmrlərini hər an layiqincə yerinə yetirməyə qadirdir.

***Rauf Kəngərli***
***AZƏRTAC-ın Naxçıvan Muxtar Respublikasındakı bürosunun rəhbəri***

# Çili radiosunun saytında 20 Yanvar faciəsi ilə bağlı geniş məqalə yayılıb

Çilinin "Uchile" radiosunun saytında "Azərbaycanın faciəli və ümidli yanvarı" adlı məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, müəllif Pablo Xofre məqaləsində 1990-cı il yanvarın 20-də Bakıda törədilmiş qırğın haqqında ətraflı məlumat verir. Qeyd edilir ki, bu gün Azərbaycan xalqının tarixində yalnız faciə günü deyil, həm də ölkənin suverenliyi istiqamətində yeni bir dövrün başlanğıcıdır. Müəllif 20 Yanvar faciəsinə gətirib çıxaran xronologiyanı aydın şəkildə təsvir edir. Xalqımızın 20 Yanvar şəhidlərini unutmadığı, hər il yanvarın 20-də Şəhidlər xiyabanını on minlərlə insanın ziyarət etdiyi bildirilir. Həmçinin məqalədə Azərbaycanın tarixindən, mədəniyyətindən geniş bəhs olunur.



# 20 Yanvar faciəsi Azərbaycanın şərəf və qəhrəmanlıq tarixidir

*Xalqımız milli azadlıq uğrunda canlarından keçmiş 20 Yanvar faciəsinin qurbanlarını heç vaxt unutmayacaqdır*



***1990-ci il yanvarın 19-dan 20-ə keçən gecə o vaxtki SSR-nin hərbi birləşmələri Bakı şəhərinə soxularaq, kütləvi qırğın həyata keçirmişlər. Görünməmiş qəddarlıq nəticəsində, Azərbaycanın yüzlərlə günahsız vətəndaşı yaralandı və qətlə yetirildi. Bununla da, Azərbaycan xalqına qarşı kütləvi terror aktı həyata keçirildi. Söhbət etdiyimiz müsahiblərimiz 20 Yanvar faciəsinin azadlıq və qəhrəmanlıq salnaməsi olduğunu bildirdilər.***

### Millət vəkili Azər Badamov:

- 20 Yanvar faciəsindən 28 il keçsə də, xalqımız hər il 20 yanvarda ölkəmizin milli azadlığı və müstəqilliyi uğrunda öz canlarından keçmiş şəxslərin xatirəsini ehtiramla anır və məzarlarına tər qərənfil dəstələri düzməklə yad edir. Azərbaycanda azadlıq uğrunda birləşərək hökumətə qarşı mübarizəyə qalxan əliyalın insanları SSRİ rəhbərliyinin göstərişi ilə təpədən-dırnağa qədər silahlanmış ordu tərəfindən 1990-cı ilin 20 yanvarında gülləbaran edilərək qətlə yetirilmişdir. 20 yanvar hadisələri zamanı müstəqilliyimizin boğulmasından danışanda, qeyd etmək istəyirəm ki, məhz Azərbaycanda baş verən hadisələrdən sonra SSRİ maşını çalxalanmağa başlandı. Etiraz dalğası bütün SSRİ miqyasına yayıldı və demək olar ki, 20 Yanvar faciəsi SSRİ-də birləşən 15 müttəfiq respublikanın müstəqillik əldə etməsinin bünövrəsində dayanır. Amma çox təəssüf ki, bu faciə bizim başımıza gəldi. Qalan respublikalar isə, Sovet maşını dağılandan sonra avtomatik surətdə öz müstəqilliklərinə qovuşdular. Ona görə də, xalqımıza qarşı törədilmiş 20 Yanvar faciəsini keçmiş Sovet İttifaqının bütün vətəndaşları qeyd etməlidirlər. Xalqımız milli azadlıq uğrunda canlarından keçmiş 20 Yanvar faciəsinin qurbanlarını heç vaxt unutmayacaqdır.

### "Kaspi" qəzetinin baş redaktoru İlham Quliyev:

- 1990-cı il yanvarın 19-dan 20-ə keçən gecə paytaxt Bakıda və ətraf rayonlarda törədilən hadisələr Azərbaycan xalqının iradəsini və milli azadlıq uğrunda mübarizə əzmini qırmaq üçün həyata keçirilib. Sovet ordusunun, xüsusi təyinatlı dəstələrinin və daxili qoşunların iri kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklərlə müşayiət edilib. 1990-cı ilin yanvar ayında qoşunların qanunsuz yeridilməsi nəticəsində, Bakıda və Azərbaycan rayonlarında, ümumilikdə, 146 nəfər öldürülüb, 744 nəfər yaralanıb, 841 nəfər qanunsuz həbs olunub. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən, təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edilib. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin, təcili yardım işçiləri və milis nəfərləri də olub. Qabaqcadan düşünülüb hazırlanmış bu təcavüzkar aksiya Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq, xalqı təhqir edərək, ona mənəvi zərbə vurmaq məqsədi daşıyıb. Lakin onların bu məqsədi həyata keçməyib. Əksinə, Azərbaycanın mərd oğul və qızları öz həyatları bahasına xalqımızın tarixində şərəf və qəhrəmanlıq səhifəsi yazıblar. Beləliklə də, SSRİ adlı nəhəng imperiyanın süqutu daha da sürətlənib, xalqımızın milli azadlığı və müstəqilliyi üçün yol açılıb.

### İnsan Hüquqları XXI əsr Fondunun sədri Şahin Camalov:

- Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrindən artıq 28 il keçir. Keçmiş Sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüz insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi qalacaqdır. 20 Yanvar müstəqil Azərbaycanın ən şərfli tarixidir. Bu gün müstəqil Azərbaycanın mövcud olmasında, müstəqilliyimizin əldə olunmasında xalqın birliyi öz təcəssümünü tapmış oldu.

**GÜLYANƏ**

# YAP Sumqayıt şəhər təşkilatının şura iclası keçirilib



Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər təşkilatının inzibati binasında təşkilatın şura iclası keçirilib. İclasda 2017-ci ildə görülən işlərə yekun vurulub və qarşıya qoyulmuş vəzifələrin icrası müzakirə olunub.

YAP Sumqayıt şəhər təşkilatının sədri Ramiz Hüseynov ötən dövr ərzində, təşkilat tərəfindən görülmüş işlər və qarşıda duran vəzifələr barədə məlumat verib. Sumqayıt şəhər icra hakimiyyətinin başçısı, Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər təşkilatının şura üzvü Zakir Fərəcov iclasda çıxış edərək, qeyd edib ki, Yeni Azərbaycan Partiyası Azərbaycanın aparıcı siyasi qüvvəsidir. Partiyanin yaranmasından 25 il ötdüyünü vurğulayan Zakir Fərəcov diqqətə çatdırıb ki, Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə gəldikdən sonra Azərbaycanın hərtərəfli inkişafı, müasirləşməsi və Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin dünya birliyində mövqelərinin möhkəmlənməsi işində əldə edilmiş uğurların, məhz Yeni Azərbaycan Partiyasının fəaliyyəti ilə bağlı olduğunu və YAP Sumqayıt şəhər təşkilatının qarşısında duran vəzifələrdən ətraflı söz açmışdır. Daha sonra YAP Sumqayıt şəhər təşkilatı sədrinin təşkilati məsələlər üzrə müavini Vəzirxan Ənsərov, ideoloji məsələlər üzrə müavini Teymur Səmədov, qadınlarla iş üzrə müavini Səkinə Sadıqova, təşkilatın nəzarət-təftiş qrupunun sədri Akif Kərimov, gənclər birliyinin sədri Elvin Məmmədzadə və digər çıxışçılar ötən dövr ərzində görülmüş işlər və qarşıda duran vəzifələrlə bağlı məruzə ilə çıxış ediblər.

Yekunda Yeni Azərbaycan Partiyasının sıralarına yeni daxil olmuş gənclərə partiyanın üzvlük vəsiqələri təqdim edilib.

**RÖVŞƏN**



**İLHAM**

# Qarabağlı şou biznesdə ola bilərmi?

***Bu gün kiminlə görüşsən kef-əhval, sağlamlıq durumu soruşulduqdan dərhal sonra giley-güzara başlayacaq. Problemləri sadalamaq, qayğıları dilə gətirmək və çətinlikləri qeyd etmək adiləşəcək. Sağollaşıb ayrılanda isə bu fikir mütləq olacaq: hər şey yaxşı olacaq, ye-iç kef elə. Əlavə o fikir də vurğulanacaq ki, beş günlük dünyadır, adama ancaq yeyib-içmək qalacaq.***

Bilmirəm, "ya vəlvələdən, ya da zəlzələdən"dir, ya nədəndirsə, bu gün cəmiyyətdə yuxarıda qeyd etdiklərim əsasında insanlar daha çox baş sındırırlar. Yeni günlərini yeyib-içməyə, şən çal-çağırlı gün keçirməyə həsr etməyə çalışırlar. Deyəsən, insanların istəyindəndir ki, televiziyalarımız da eyni ahənglə fəaliyyət göstərirlər. Günün istənilən saatında istənilən kanalı açsan, yalnız çal-çağırdır, şou əhlinin ünlü mütrüblərinin meydan sulamasıdır. Sanki belə də olmalıdır. Elə bil, Dağlıq Qarabağ kimi xalqımızın qaysaq bağlayan yarası yoxdur və ya arada bir düşmənin açdığı atəş nəticəsində, şəhid olan əsgərlər bizim deyil. Düşmən gülləsinə tuş gələn 2 yaşlı Zəhranın soydaşları deyilik. Xocalı soyqırımına, Malıbəyli, Şelli faciələrinin, 20 Yanvar qırğınının vətəndaşları deyilik. Sanki Röya, Aygün, Manaf, Tacir, Əflatun, Ədalət, Damla, Faiq və digərləri atlanıb-düşüb, müxtəlif məzhəkələr göstərmələri bizə daha vacibdir. Düzdür, cəmiyyət, ümumilikdə, yasdan, qara geyinməkdən ibarət olmamalıdır. Ancaq müharibə şəraitində olduğumuzu da unutmamalıyıq. Dərk etməliyik ki, biz yağı düşmənlə üz-üzəyik. Anlamalıyıq ki, cəbhə bölgəsində, müvəqqəti də olsa, çətinliklə yaşayan vətəndaşlarımız var.

Sizi əmin edə bilərəm ki, şou əhlinin ünlü mütrüblərinin böyük əksəriyyətinin Azərbaycan torpaqlarının işğal tarixi ilə bağlı məlumatları yoxdur. Misal göstərim. Bir qədər əvvəl, Aşıq Zülfiyyə və Nadir Qafarzadə Xocalı soyqırımı günü xarici ölkələrdən birində məclis iştirakçısı olub, zəngulə vurmuşdular. Hələ bu barədə irad bildiriləndə, utanıb-çəkinmədən özlərinə haqq qazandırmağa çalışmışdılar. Bu isə, onu göstərir ki, mütrüblər üçün vətən, xalq anlayışı yoxdur. Onlar üçün başlıca şərt deyib-gülüb oynamaq və sonra da puldur. Düşünürəm ki, xüsusilə, Qarabağ bölgəsindən olan müğənni şou-biznesdə ola bilməz. Öz sənətindən, öz peşəsindən imtina etməlidir. İstedadını Qarabağ həqiqətlərini və xalqın üzləşdiyi faciəni müxtəlif vasitələrlə dünya xalqlarına çatdırmağa çalışmalıdır. Amma təəssüf ki, Qarabağdan olan müğənnilər oxuyub-oynamaqda daha fəaldırlar. Moskva, İstanbul və Avropanın müxtəlif şəhərlərini su yoluna döndərmək, Qarabağ bölgəsində doğulan, erməni vəhşiliyini görən, eşidən və ya oxuyan şou əhli üçün mənim Bakıdan kəndimə getməyim kimi adi bir yoldur. Ancaq bir dəfə də olsun, bu məxluqatlar konsert proqramı ilə çıxış etdikləri dövlətlərdə işğal altında olan Qarabağla bağlı təbliğat materialları ilə çıxış etdiklərini eşitməmişəm. Özləri də yalandan-palandan olsa da, dilə gətirməyiblər. Ən dəhşətlisi odur ki, Qarbağdan olan şou əhlinin əksəriyyəti hərbi xidmətdə də olmayıblar. Belələrinə nə ad verəsən?

# 20 Yanvar - Azərbaycanın istiqlal yolu



Dünən Bakı şəhər İcra Hakimiyyətinin Kino Xidməti İdarəsi 20 Yanvar faciəsinin 28-ci ildönümü ilə bağlı XXI əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzində tədbir keçirib.

Tədbirdə Azərbaycanın müstəqilliyi və xalqımızın azadlığı uğrunda canlarını qurban verən qəhrəman Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib və Azərbaycanın Dövlət Himni səsləndirilib.

Tədbirdə millət vəkili Aqil Abbas, Yasamal rayon icra hakimiyyətinin şöbə müdiri Zöhrab Cəfərov, XXI əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzin təsisçisi Arif Qaraşov və şəhid ailələrinin üzvləri çıxış ediblər. Çıxışçılar 20 Yanvar faciəsinin Azərbaycanın istiqlal yolunun ilk zirvəsi və milli azadlıq arzusunun oyanış günü olduğunu qeyd ediblər. Bildirilib ki, həmin gün uzun illər Sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz müstəqlliyi uğrunda qəhrəmanlıq, cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir. Xalqımızın faciədə çəkdiyi iztirablara, verdiyi qurbanlara, yaşadığı qanlı faciəyə baxmayaraq, bu gün həm hüzn, həm də tariximizin şərəfli səhifəsi olmaqla, xalqımızın mübarizlik və qəhrəmanlıq tarixidir.

Mərasimdə "Savalan" qrupunun rəhbəri xanəndə Novruz Novruzov şəhidlərə həsr olunmuş mahnılar ifa edib.

Tədbirdə Kino Xidməti İdarəsinin rəisi Gültəkin Nəriman Azərbaycan xalqının qan yaddaşında əbədi yaşayacaq 20 Yanvar faciəsinin hər il ümumxalq hüzn günü kimi qeyd olunduğunu bildirib. O, 20 Yanvar hadisələrinin Azərbaycan xalqının milli oyanışından, azadlıq və müstəqillik mücadiləsindən xəbər verən tarixi bir gerçəklik olduğunu vurğulayıb. Bildirib ki, on minlərlə insan Sovet rejiminin ədalətsiz və riyakar münasibətinə etiraz əlaməti olaraq küçələrə çıxaraq, haqq səsini ucaldıb.

Sonda 20 Yanvar faciəsinə həsr olunmuş ssenari müəllifi və rejissor Gültəkin Nərimanın "Tarixin acısı - Qan yaddaşımız" adlı sənədli film nümayiş olunub.

**ZÜMRÜD**

# Daşkəsən rayonunda 20 Yanvar şəhidlərinin xatirəsi dərin hüzn və ehtiramla anılıb

## *20 Yanvar faciəsində şəhid olanların xatirəsi Daşkəsən rayonunda silsilə tədbirlərlə anılır*

***Dünən rayon rəhbərliyinin, ictimaiyyət nümayəndələrinin, ziyalıların iştirakı ilə Şəhidlər Xiyabanı ziyarət edilib, şəhidlərin ruhuna dualar oxunub. Şəhid məzarlarının üzərinə və abidənin önünə tər çiçəklər düzülüb.***



Anım mərasimindəki çıxışlarda qeyd olunub ki, 20 Yanvar hadisələrinə hüquqi-siyasi qiymət yalnız Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra verilib. Sovet qoşunları və erməniхislət qüvvələr tərəfindən törədilmiş 20 Yanvar qırğını Azərbaycanda xalqın azadlıq uğrunda mübarizə ruhunu məhv etmək məqsədi daşıyırdı. 20 Yanvar hadisələri demokratik proseslərə qəsd, düşünülmüş hərbi təcavüz, respublikanın suveren hüquqlarını, ümumiyyətlə, insan hüquqlarını pozan hərəkət idi. Xalqımızın qan yaddaşında əbədi yaşayacaq 20 Yanvar şəhidləri ölməzdir.



Çıxış edənlər bildiriblər ki, 20 Yanvar şəhidləri Vətənin azadlığı və suverenliyi uğrunda göstərdikləri şücaətlər bugünkü gənclərimizə örnəkdir. Xalqımız əmindir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində, torpaqlarımız işğaldan azad ediləcək və şəhidlərimizin uğrunda canlarını qurban verdikləri Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq. Tədbirdə ədəbi-bədii kompozisiya nümayiş etdirilib.



Təhmasib Novruzov

# 20 Yanvar - tariximizin şanlı səhifəsi

***1990-cı ilin 20 Yanvar hadisəsi haqqında çox yazılıb və çox deyilib. Hələ yüz illər boyu yazılacaq və deyiləcək də. Kimi bu hadisəni faciə, kimi qəhrəmanlıq tarixi və milli varlığımızın təsdiqi kimi izah edir. Bu da, təbiidir. Çünki bu hadisədə o qədər bir-birini inkar edən məqamlar var ki, onlar hələ də yetərincə tədqiq və təhlil olunmayıb. Zaman-zaman oxuduğumuz və dinlədiyimiz təhlillər hələ də hadisənin əsl mahiyyətini anlamağa imkan vermir.***

Öncə bilməliyik ki, 1990-cı il yanvar ayının 20-də Bakıya, dünyanı lərzəyə salan Sovet ordusunun və Daxili qoşunların birləşmiş kontingentinin yeridilməsinə həqiqətənmi ehtiyac var idi? Təbii ki, cavab birmənalıdır: yox! Çünki bu ordu ABŞ-dan tutmuş Çinə qədər bütün dünyanı qorxu altında saxlamağı bacaran çox böyük qüvvə idi. Belə bir qüvvənin, İttifaqın bir parçası olan, silahsız kütlələrlə ədalət tələb edən azsaylı bir xalqın üzərinə göndərilməsi, bu ordunun şanına-şöhrətinə xələl gətirmirdimi? SSRİ-nin müdafiə naziri, SSRİ daxili işlər naziri şəxsən Bakıya gələrək bu qanlı əməliyyata rəhbərlik edirdilər. Doğrudanmı Azərbaycanda gedən milli azadlıq hərakatı o qədər təhlükəli idi ki, heç NATO kimi hərbi bloka da ordusunu bu qədər səfərbər etməyən Sovet rəhbərliyi, Bakıdan bu qədər ehtiyatlanırdı? Axı Bakıda baş verənləri, elə Bakıda olan cüzi hərbi kontingentlə də sakitləşdirmək olardı! Elə isə, İttifaq rəhbərliyi bu qədər ağır texnikanı və ordu kontingentini niyə göndərdi Bakıya? Əslində, ilk baxışdan, sadə görünən bu sualların cavabı hələ də qaranlıq qalır. Cavabsız qalan bir sual daha var: Sovet rəhbərliyi Bakıda qanlı qırğın törətmək fikrinə nə zaman düşdü? Elə məsələnin mahiyyətinin çözülməsi də bu sualın cavabından asılıdır. Mənim düşüncəmə görə, 20 Yanvar faciesini Qarabağda baş verənlərlə, Bakıda həmin ərəfədə güclənən milli azdlıq hərakatı ilə birbaşa bağlamaq doğru deyil. Sovet rəhbərliyi 1920-ci ildə Azərbaycanı ikinci dəfə işğal etdikdən sonra, bu xalqa dəfələrlə gücünü nümayiş etdirmiş, istiqlal naminə səsini qaldıranları məhv etmiş, nəticə etibarilə bu xalqı milli ruhundan ayırmaq və manqurtlaşdırmaq siyasəti yürütmüşdür. Ötən əsrin 20-ci illərində "kulak" adı qoyub bacarıqlı insanları, düşünən beyinləri sürgünlərə göndərən də bu qanlı imperiya idi. 30-cu illərdə aparılan ziyalı soyqırımı (oxu: repressiya) da imperiya məqsədlərini inkişaf etdirmək istəyən Stalin rejiminin manqurtlaşdırma siyasətinin tərkib hissəsi idi. 40-cı illərin sonunda yüz minlərlə soydaşımızın öz dədə-baba yurdlarından çıxarılaraq, Azərbaycanın düzəngahlarına səpələnməsi də bu siyasətin ssenarisinin bir həlqəsi idi. Bütün bunlar zaman-zaman Azərbaycana güc nümayiş etdirməklə, bu milləti əsarətdə saxlamağa yönələn böyük siyasətin həlqələridir. 20 Yanvar hadisələrini Qarabağda baş verənlərlə, Bakıda xalqın haqq-ədalət tələbini susdurmaqla əlaqələndirmək, məhz bu baxımdan, yanlışlıq hesab edilməlidir. Əksinə, hesab edirəm ki, hayları it kimi qısqırdıb ortaya atmaq, onlara dəstək verməklə Azərbaycan xalqının heysiyyətini tapdamaq, əvvəl Sumqayıtda, sonra Bakıda Kremlin diktəsi ilə qırğınlar törədib haqqımızda "barbar" obrazı yaratmaq və bu sırada digər olaylar birbaşa xalqımızın gözünü qırmağa, onu yenidən susdurmağa yönələn məkrli siyasətin tərkib hissəsi idi. Yəni 20 Yanvar, faciəsi ona görə baş vermədi ki, xalq Qarabağ uğrunda ayağa qalxmışdı, xalqı ayağa qalxmağa, ona görə vadar etmişdilər ki, 20 Yanvar qırğınını törətsinlər. Bilmirəm, mənim bu fikirlərimlə kim razılaşacaq, kim yox. Amma bu tarixi hadisə ilə əlaqədar mənim gəldiyim nəticə bundan ibarətdir. Elə bu baxımdan da, 20 Yanvar hadisəsinə gələn yolu 1988-ci ildən başlanan milli azadlıq hərakatı, yaxud 1990-cı ildə Bakıda təşkil olunmuş "erməni qırğını" ilə əlaqələndirmək məsələnin mahiyyətindən uzaqlaşmaq olardı. 1990-cı il 20 Yanvar hadisəsinə gələn yolun başlanğıcını 28 aprel 1920-ci ildən, bir az da dərinə getsək, XIX ərsin əvvəllərindən hesablamaq daha doğru olardı. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini qeyd etdiyimiz bu ildə, hesab edirəm ki, tariximizin 20 Yanvar adlanan şanlı səhifəsini, məhz bu baxış nöqtəsindən vərəqləmək daha doğru olardı...

# Tariximizin şərəf və qəhrəmanlıq səhifəsi



Qusar rayon Heydər Əliyev Mərkəzi və Yeni Azərbaycan Partiyası Qusar rayon təşkilatı gənclər birliyinin birgə təşkilatçılığı ilə 20 Yanvar faciəsinin 28-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.

Tədbiri giriş sözü ilə Heydər Əliyev Mərkəzinin direktoru Neva Abdurahmanova açaraq, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə xalqımıza qarşı törədilmiş qanlı cinayətdən danışıb.

Tədbirdə çıxış edən YAP Siyasi Şurasının üzvü, partiyanın rayon təşkilatının sədri David İbramxəlilov bildirib ki, 20 Yanvar faciəsi tariximizin şərəf və qəhrəmanlıq səhifəsidir. 28 il bundan öncə, həyata keçirilən qanlı hadisələrdən söz açan rayon təşkilatının sədri 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet ordusunun Azərbaycan xalqına qarşı həyata keçirdiyi təcavüzün insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi yaddaşlardan silinməyəcəyini qeyd edib. Bildirib ki, milli azadlıq və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə divan tutulması nəticəsində, yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar Sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi.

D.İbramxəlilov Qanlı Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilməsində, faciənin günahkarlarının üzə çıxarılmasında, şəhidlərin adının əbədiləşdirilməsində Ümummilli Lider Heydər Əliyevin əvəzsiz tarixi xidmətlərini diqqətə çatdırıb: “Ulu Öndər Heydər Əliyev hadisənin ertəsi günü Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək, keçirdiyi mətbuat konfransında bu vəhşiliyi qətiyyətlə pisləməklə yanaşı, onun təşkilatçılarının və günahkarlarının adını bütün dünyaya bəyan edib”.

Anım tədbirində fəal gənclərdən Nərgiz Muradxanova, Elvin Qahirov və Rəsul Şalbuzov çıxış ediblər. Bildirilib ki, 20 Yanvar hadisələri xalqımıza qarşı Sovet imperiyası tərəfindən törədilmiş qanlı faciə olsa da, həm də xalqımızın əzmkarlıq və qəhrəmanlıq səhifəsidir. Sonra məktəblilər vətənpərvərlik mövzusunda şeirlər ifa ediblər. Tədbirin sonunda qanlı faciəni əks etdirən videoçarx nümayiş etdirilib.

**NƏZAKƏT**

# Xaçmazda “Yardım et” kampaniyası davam edir



YAP Xaçmaz rayon təşkilatı və Heydər Əliyev Mərkəzinin birgə təşəbbüsü ilə “Yardım et” kampaniyası davam edir. Kampaniya çərçivəsində 20 Yanvar faciəsinin 28-ci ildönümü ərəfəsində bir qrup şəhid ailələri və əlillərə maddi və mənəvi yardım göstərilib. 20 Yanvar tarixində ölkəmizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizə aparan, bu yolda canlarını qurban verən, əlil olan insanların yanında olmaq, onlara maddi və mənəvi cəhətdən dayaq olmaq hər bir Azərbaycan vətəndaşının borcudur. Şərəf və qəhrəmanlıq tariximizin və müstəqilliyimizin qazanılmasında iştirak edən belə insanlarla xalqımız qürur duyur. 1990-cı il yanvar ayının 20-si Azərbaycan tarixinin qanlı səhifəsinə çevrilsə də, eyni zamanda, xalqımızın qəhrəmanlıq ənənələrinə sadiqliyini, vətənin müstəqilliyi və azadlığı uğrunda canından belə keçməyə hazır olduğunu bir daha sübut etdi. Məhz buna görə də, 20 Yanvar faciəsi xalqımızın azadlıq mübarizəsinin rəmzidir. Bu gün Azərbaycan xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətən övladları canlarından keçərək və şəhidlik zirvəsinə ucalıblar. Ona görə də, bu hadisə Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə həm də bir qəhrəmanlıq səhifəsi kimi daxil olub.

Bu gün fiziki qüsuru olan şəxslərin cəmiyyətdən tədric olunmaması üçün hamılıqla çalışmalıyıq. Xeyirxah iş, xeyirxah əməl insanı mənən ucaldır və onu yaşadığı cəmiyyətin ən ləyaqətli üzvünə çevirir.

**Z. BAYRAMOVA**



# Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər təşkilatında görüş keçirilib

Dünən Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər təşkilatının yeni istifadəyə verilmiş inzibati binasında gənclər birliyinin idarə heyəti və fəal gənclərlə görüş keçirilmişdir. Görüşü YAP Sumqayıt şəhər təşkilatının gənclər birliyinin sədri Elvin Məmmədzadə açaraq, idarə heyətini, fəal gəncləri və görüşdə iştirak edən qonaqları salamlamış, qarşıda duran mühüm vəzifələr və yeni layihələrlə bağlı ətraflı məlumat vermişdir.

YAP Sumqayıt şəhər təşkilatı sədrinin gənclər ilə iş üzrə müavini Elmar Xəlilov çıxış edərək, gənclər birliyinin 2018-ci il üçün hazırlanmış iş planına uyğun tapşırıq və tövsiyələrini vermiş, qarşıdan gələn prezident seçkilərində gənclərimizi daha da fəal olmağa çağırmışdır.

Daha sonra çıxış edən Sumqayıt şəhər icra hakimiyyətinin nümayəndəsi Ceyhun Məmmədov və Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsinin rəis əvəzi Mübariz Bəşirov gənclərimizin Cənab Prezidentimizə sadiqliyindən və dövlətimizin apardığı uğurlu siyasətdən geniş söhbət açmış, şəhərimizdə gedən irimiqyaslı tikinti-abadlıq və quruculuq işləri haqqında ətraflı məlumat vermişlər. Görüşdə gənclər çıxış edərək, hər zaman Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü siyasəti daim dəstəkləyəcəklər və YAP-ın fəaliyyətində daha da aktiv olacaqlarını bildirmişlər.

**RÖVŞƏN**

# YAP Ağdam rayon təşkilatında “700 min ağac əkək” kampaniyası davam edir



Dünən Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi ilə əlaqədar “700 min ağac əkək” kampaniyası çərçivəsində YAP Ağdam rayon təşkilatı tərəfindən ağacəkmə aksiyası davam etdirilib.

Aksiyada YAP Ağdam rayon təşkilatının şura üzvləri, qadınlar şurası, gənclər birliyinin fəalları, ilk partiya təşkilatının sədrləri və YAP üzvləri iştirak ediblər. Rayonun Bayraq meydanı ərazisində və Soltanbud meşəsində 870 ədəd ağac əkilib. Qeyd edək ki, ümumilikdə, rayon təşkilatı tərəfindən aksiya müddətində 6500 ədəd ağacın əkilməsi nəzərdə tutulmuşdur. Bu günə qədər isə 3720 ədəd ağac əkilib.

**ZÜMRÜD**



# İnsanın daxili azadlıq hüququ

***Daxili azadlığın mexanizmini təhlil edərkən, müasir elmi nailiyyətlərin (xüsusilə də genetika və gen mühəndisliyinin) ona müdaxilə etmək imkanları məsələlərinə də diqqət yetirilmişdir. Ümumi baxımdan yanaşdıqda, qeyd olunmalıdır ki, müasir təbiətşünaslıq, təbiət və biologiya elmləri, insanın anatomik quruluşu və fəaliyyəti ilə bağlı məsələlərinin həllində çox mühüm uğurlar əldə etmişdir. Genetika insanın irsiyyət mexanizminin öyrənilməsində daha böyük nailiyyətlər qazanmışdır. Müasir dövrdə elmin yuxarıda qeyd olunan istiqamətləri, həm də son dərəcə mürəkkəb problemlər olan insan psixikası ilə bağlı məsələlərə, o cümlədən, iradə azadlığı sahəsinə nüfuz etməyə cəhd göstərir.***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Əlbəttə, sözügedən istiqamətdə irəliləyişlərin əldə olunması bir çox çətinliklərlə qarşılanır. Çünki söhbət şüurun öyrənilməsindən, şəxsiyyətin daxili aləminin dərinliklərinə nüfuz etməkdən gedir. Bununla belə, müasir genetika elmi insanın təbii irsiyyət mexanizminə əhəmiyyətli dərəcədə dəyişikliklər edə bilir. Lakin bəzən bu qəbildən olan uğurların rolu həddən artıq şişirdilərək, göstərilir ki, guya genlərə və onların fəaliyyətinə təsir etməklə, davranışı və hərəkətləri irəlicədən proqramlaşdırılan, ümumi standartlardan kənara çıxmayan insan nəsli yetişdirmək mümkündür. Bu qəbildən olan baxışlar da, belə hesab edir ki, insanın orqanizmi nəticə etibarilə müəyyən hissələrdən ibarət olduğu üçün, onları texnoloji yollarla hazırlamaq olar. Həmin nöqteyi-nəzərə görə, hətta insanın iradə azadlığı da fiziki, bioloji və digər maddi proseslərdən asılıdır. Buna görə də, elmin müasir keyfiyyətlərinə arxalanmaqla, onu manipulyasiya etmək, başqalarının iradəsini sözsüz yerinə yetirən müti xarakterli insan yaratmaq mümkündür.

Analoji baxışların ən böyük nöqsanı bundan ibarətdir ki, onlar insanın psixiki hadisələri və proseslərinin, o cümlədən də, iradə azadlığının yalnız maddi amillərlə şərtləndiyini iddia edirlər. Əslində isə, daxili azadlığın bütün ünsürləri kimi iradə azadlığı da maddi amillərdən daha çox sosial, psixiki və mənəvi amilərlə bağlıdır. Maddi determinasiya onun yalnız bəzi ünsürlərində, özü də az miqdarda təsir göstərir. Burada əsas yeri daha yüksək səviyyəli şərtlənmə əlaqələri tutur. Sonuncular fiziki, kimyəvi və bioloji təsirlərə qarşı çox davamlı olan sosial və mənəvi göstəricilər kompleksi əsasında fəaliyyət göstərirlər. Buna görə də, insanın azadlığı mexanizmində bioloji təsir metodlarının rolunu şişirtmək doğru deyildir.

Əlbəttə, deyilənlərdən belə nəticə çıxarmaq olmaz ki, müasir dövrdə şəxsiyyətin strukturunun, onun davranışının genetik əsaslarının öyrənilməsi gərəksizdir. Belə yanaşma yanlışdır, çünki həmin istiqamətdə qazanılan elmi nailiyyətlər, müasir şəraitdə insanın tərbiyəsi, onun qabiliyyətlərinin ahəngdar inkişaf etdirilməsi ilə bağlı bir sıra problemlərin həllində əhəmiyyətli dərəcədə fayda gətirir.

Q.Allahverdiyevin fikrincə, daxili azadlığın yuxarıda qeyd olunan səpkilərinin araşdırılması buna görə çox mühümdür ki, onlar kompleks halda şəxsiyyətin özünü təsdiq etməsinə və reallaşdırmasına xidmət edir. Başqa sözlə, onların birgə təsiri daxili azadlığın başa çatma mərhələsini ifadə edən insanın özünü reallaşdırmasının vasitəsi rolunu oynayır. Sonuncu məqam, ümumi azadlıqda xüsusi yer tutur, çünki məhz insanın predmetli-fəaliyyət göstərən varlıq olması, mahiyyəti və obyektiv aləmdə öz fərdiliyini ifadə etməsi ilə daha sıx surətdə bağlıdır. Azadlığın müasir elmi anlamı o deməkdir ki, hər bir şəxsiyyətin daxilində özünü obyektiv aləmdə reallaşdırmağa olan daxili tələbat mövcuddur. O, bundan çıxış edərək, fəaliyyət göstərir, qərar qəbul edir və onu yerinə yetirməyə cəhd edir. Həmin prosesdə insanın daxili subyektiv tərəflərinin bir növ xariciyə, obyektivə çevrilməsi baş verir. Əməkdə və yaradıcı fəaliyyətin digər sahələrində özünü reallaşdıran şəxsiyyət, öz subyektiv niyyətləri ilə yanaşı, həm də sosial əhəmiyyətli dəyərləri həyata keçirir.

Lakin qeyd olunan proseslərin avtomatik və özbaşına getdiyini təsəvvür etmək sadəlövhlük olardı. Çünki deyilənlər, əslində, həmin istiqamətlərdə müvafiq imkanların yarandığını əks etdirir. Bu imkanların gerçəkliyə çevrilməsi və həyata keçirilməsi, mövcud cəmiyyətin sosial şəraitindən, burada qərarlaşan maddi və mənəvi amillər kompleksindən asılı olur. Başqa sözlə deyilsə, həmin imkanlar, cəmiyyətin maddi və mənəvi yetkinlik səviyyəsinə uyğun olaraq, reallaşdırıla bilir.

İctimai münasibətlər sistemi daxilində insanın həyat fəaliyyəti son dərəcə müxtəlif ictimai və fərdi formalarda çıxış edir. Bu rəngarəngliyə uyğun olaraq, azadlığın praktiki reallaşma səpgisində onun siyasi, iqtisadi, sosial və mənəvi növləri mövcuddur. Onların hamısı azadlığın mahiyyətini ifadə etdiyi üçün bir sıra ümumi cəhətlərə malik olur. Bununla yanaşı, həmin formaların hər biri özünün spesifikliyi və təkrarsızlığı ilə səciyyələnir. Buradan da aydın olur ki, onlar arasında süni sədlər yaratmaq qeyri-mümkün olduğu üçün müxtəlif formaların özünəməxsusluqlarını lazımi dəəcədə qiymətləndirməmək də yolverilməzdir.

Müasir dövrdə ölkə daxilində və beynəlxalq miqyasda baş verən əsaslı dəyişikliklər, azadlıq anlayışının məzmunu ilə yanaşı, onun strukturunda da əhəmiyyətli irəliləyişləri şərtləndirir. Bu mənada, onu birdəfəlik verilən və dəyişməz xarakter daşıyan hesab etmək doğru olmazdı. Başqa sistemlərdə olduğu kimi, burada da daxili ünsürlərin inkişafı tamın məzmununun təkmilləşməsi və bütövlük keyfiyyətinin yüksəlməsi ilə müşayiət olunur. Qeyd olunan irəliləyişlər azadlığın strukturunu optimallaşma istiqamətində inkişaf etdirir. Bu baxımdan, müasir cəmiyyətdə gedən əsaslı və hərtərəfli transformasiya prosesləri, təhsilin və mədəniyyətin inkişafı, demokratiyanın genişlənməsi hüquqi dövlətin və vətəndaş cəmiyyətinin əsaslarının möhkəmləndirilməsi misilsiz əhəmiyyətə malikdir.

Buradan aydın olur ki, insanın mənəvi azadlığı ilə maddi- cismani azadlığı, ilk nəzərdə, bir-birindən fərqli görünsə də, dərindən nəzər saldıqda, onlar qarşılıqlı təsirdə və vəhdətdə olub və biri digərini tamamlayır. Başqa sözlə deyilsə, Şərq fəlsəfi fikrində insanın öz daxili dünyasına yönələn düşüncələri, öz nəfsinə qarşı mübarizə aparmaq qabiliyyəti özü-özlüyündə nə qədər mühüm olsa da, tam azadlıq üçün kifayət deyildir, çünki ictimai həyatda azadlıqlar olmadığı yerdə, fərdin davranış və hərəkətlərinə cəmiyyət tərəfindən total nəzarət edildiyi halda, azadlıq öz anlayışına adekvat ola bilməz. Eynilə də, Qərbin düşüncə tərzində üstün yer tutan qanun və hüquq səviyyəsində təmin olunan azadlıq (yəni xarici azadlıq) bu anlayışın həqiqi idealına uyğun gəlmir. Deməli, təkcə mövcud hüquq sistemində öz təcəssümünü tapan, insanlar arasında mənəvi münasibətlərə və əxlaqi normalara arxalanmayan azadlıq cansıxıcı və darıxdırıcı olması ilə səciyyələnir. Eynilə də, irrasional keyfiyyətlərin cövlan etməsini, hisslərin coşub-daşmasını əsas götürən və rasional məqamlara məhəl qoymayan azadlıq cəmiyyət üçün normal hesab oluna bilməz. Bu, bir daha sübut edir ki, azadlıq anlamına dair Şərq və Qərb fəlsəfi fikrində özünü göstərən xüsusiyyətləri ifadə edən məqamların sintez edilməsi, bəşəriyyətin ümumi azadlıq idealının reallaşması baxımından, yeganə səmərəli yol hesab edilməlidir.

XX əsrdən etibarən bəşəriyyətin vahid ümumi tarixinin və birliyinin formalaşması fikri getdikcə daha geniş miqyasda şüurlara hakim kəsilməkdədir Belə şəraitdə Qərb və Şərq sivilizasiyalarının bir-birindən təcrid olunması və birbirinə qarşı qoyulması fikri özünü doğrultmur. Bu iki regionda yaşayan ölkələrin və xalqların hər birinə xas olan üstün cəhətlərin qarşılıqlı surətdə mübadilə edilməsi zərurəti getdikcə daha aydın görünür. Azadlıq ideyasının da çox mühüm yer tutduğu ümumbəşəri dəyərlər sisteminin formalaşması prosesinin sürətləndirilməsi mənafeləri qeyd olunan dialoqun aparılmasını təkidlə tələb edir. N.İ.Konrad "Qərb və Şərq" kitabında yazırdı ki, mücərrəd mənada, bəşəriyyət mövcud deyildir, onun tarixi bütün dünya xalqlarının və ölkələrinin birlikdə yaratdıqları tarixdir. Bunu istənilən sahədə sonsuz sayda faktlarla sübut etmək olar. Bu fikri eynilə mühüm ümumbəşəri dəyər olan azadlıq haqqında da demək olar. Bu ideyanın Qərb və Şərq fəlsəfi fikrində təkamülünün izlənilməsi, sübut edir ki, onun nəzəri mənalandırılmasında hər iki region üzrə ümumi və oxşar cəhətlər artmağa doğru (əlbəttə, hər birinə xas olan özünəməxsusluqlar da nəzərə alınmaqla) meyil edir. Müasir dövrün tələbi kimi çıxış edən sivilizasiyaların dialoqu, eynilə də azadlığın sosial-fəlsəfi cəhətdən anlaşılmasında bəşəriyyəti ümumi birliyə doğru aparır.

Təhlil göstərir ki, azadlıq ideyasının təkamülü bu iki regionun sosial-fəlsəfi fikrində bərabər səviyyəli və düzxətli inkişaf yolu keçməmişdir. Bunu ondan görmək olar ki, tarixin müxtəlif dövrlərində sözügedən problemin mənalandırılmasında və nəzəri həllində gah Şərq, gah da Qərb aparıcı rol oynamışdır. Odur ki, müasir şəraitdə həmin regionların fəlsəfi fikrində azadlığın mənalandırılmasında əldə edilmiş nailiyyətlərin və müsbət tarixi təcrübənin ümumiləşdirilməsinə və sintez edilməsinə kəskin ehtiyac hiss olunur. Bu, vahid ümumbəşəri dəyərlər sisteminin formalaşması prosesinə sürətləndirici təsir göstərərdi, həmin sistemdə isə, sözün əsl mənasında, götürülən azadlıq mərkəzi yerlərdən birini tutur. Nəticədə, bəşəriyyətin ümumi azadlıq idealına doğru yaxınlaşması sürətlənərdi. Bununla əlaqədar, qeyd edək ki, müstəqil Azərbaycan dövlətinin unikal geosiyasi vəziyyəti, zəngin tarixi və mədəni ənənələri, azadlıq uğrunda çoxəsrlik mübarizə təcrübəsi onun Şərqin və Qərbin mənəvi dəyərlərinin müasir dialoqunda rolunun artmasını şərtləndirir.

Ümumiyyətlə götürdükdə, cəmiyyətin hər bir üzvünün öz azadlığını nə dərəcədə başa düşməsi çox mühüm rol oynayan amillərdəndir. Bu işin real məzmunu və konkret səviyyəsi aşağıdakı iki əsas yolla təmin olunur. Onlardan birincisi, cəmiyyətdə mövcud təhsil və tərbiyə sistemini təkmilləşdirməklə və fərdlərin əxlaqi-etik dəyərlərə yiyələnməklə öz mənəviyyatlarını zənginləşdirmələri nəticəsində, davranış və fəaliyyətlərində sosial normaların imkan verdiyi dərəcədə azadlığı həyata keçirməyin zəruriliyini başa düşməsi, bununla bağlı məhdudiyyət və qadağalara könüllü surətdə əməl etmələridir. Bu yol fərd tərəfindən azadlığın sosial zərurətin dərk olunması kimi mənalandırılmasını ifadə edir. İkinci yol, cəmiyyətin hər bir üzvünə, onun azadlığının miqyas və hədlərini mövcud qanunlar və hüquqi normalar vasitəsilə, yəni məcburi qaydada başa salmaqla bağlıdır.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

TƏRS BAXIŞ

# AXCP sədri müxalifətin hədəfindədir

## *Razi Nurullayev: "Ə. Kərimli və G.Hacıbəyli bir-birilərini tamamlayırlar"*

***Alternativ AXCP-nin sədri Razi Nrullayev "Milli Şura"nın koordinasiya şurasının üzvü Gültəkin Hacıbəylini ittiham edib. Bildirib ki, G.Hacıbəyli bütün zamanlarda yaltaq bir adam olub. Əldə etdiyimiz məlumata görə, hazırda AXCP sədrini ittiham edən müxalifət düşərgəsi bu və ya digər şəkildə onun xəyanətlərini və keyfiyyətsizliklərini ortaya qoymaqdadır.***

"İndi də Ə. Kərimlinin yanında bu funksiyasını icra edir və "canfəşanlıq" göstərir. O öz fikirlərini yox, başqalarının fikirlərini deyir. Bizim Ə.Kərimli adlı problemimiz yoxdur. Uğursuz fəaliyyət göstərdiyinə, partiyanı uçuruma apardığına görə, onun istefa verməsini tələb edirik. G.Hacıbəylinin Ə.Kərimliyə qarşı bu qədər sevgisi varsa, o zaman onu inandırsın ki, səhv yoldadır və AXCP-dən istefa verib getməlidir"-deyə qeyd edən alternativ AXCP-nin sədri onu da bildirib ki, əgər bir satqın digərinin yanında olursa, deməli, onlar bir-birilərini tamamlayırlar.

Digər müxalifət partiyasının sədri - Böyük Quruluş Partiyasının başqanı, millət vəkili Fazil Mustafa isə tarixi xatırlatma edib. Onun sözlərinə görə, Ə.Kərimlinin Əbülfəz Elçibəyə qarşı apardığı mübarizənin arxasında kifayət qədər xəyanətlər və satqınçılıqlar dayanıb. "Eləcə də Ə.Kərimlinin yanındakıların da kimlər olduğunu xatırlayanlar, yaxşı bilirlər ki, bu partiyada hər kəs yalnız xəyanətlə məşğul olur"-deyə qeyd edən F.Mustafaya görə, Azərbaycanda satqın dedikdə, birinci olaraq, Ə.Kərimli yada düşür: "Onu da qeyd edim ki, bu gün Ə.Kərimlinin "satılmaması" iddia edən tərəflərin bu cür da-



nışmağa mənəvi haqları yoxdur. Çünki xəyanət, satqınçılıq dedikdə, ilk olaraq, təsəvvürlərdə, məhz Ə.Kərimlinin obrazı canlanır".

Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayev isə bildirib ki, Ə.Kərimli bütün siyasi fəaliyyəti boyunca, ancaq satılmaq işinə baxıb: "Ə.Kərimli ancaq alqı-satqı cəmiyyəti qurub. Bu şəxsin mahiyyəti və xisləti, məhz satılmağa köklənib. Ə.Kərimlini Azərbaycan daxilində heç kim saymasa da, o, bir çox beynəlxalq təşkilatların və qurumların əlində həmişə oyuncaq olub. Həmişə Azərbaycan dövlətinə qarşı çıxıb. Lakin bunu Azərbaycan hakimiyyətinə qarşı çıxmaq kimi ifadə edib. Bu gün hər şey ortalıqdadır. Artıq seçki dövrünün start götürülməsinə baxmayaraq, bu adam hələ də çayxana söhbətləri edir. Bu səbəbdəndir ki, onun ətrafında Qəddafiyə oxşayan Gözəl Bayramovadan, Azərbaycan iqtidarına xəyanət edən G.Hacıbəylidən başqa heç kim qalmayıb".

E.Musayev G.Hacıbəylinin yazısını oxuduğunu bildirib və yazılanları şərh edib: "Orada yazılıb ki, Ə.Kərimlini satın almaq lazımdır. Bu insan "mübarizə aparmaq" ifadəsi yerinə, "satın almaq" ifadəsini işlədir. Yəni bu insanlar ancaq bazar jarqonu ilə danışırlar. G.Hacıbəyli alınıb-satılmağı gözəl bilən adamdır. Çünki vaxtilə Azərbaycan iqtidarını bizdən daha yaxşı müdafiə edib. Deməli, o, bunu mandata, mövqeyə və statusa sahib olmaq üçün edib. Heç kim zəmanət vermir ki, bu insanlar bir başqa xırda məsələyə görə dövləti və hakimiyyəti getdikləri yolda satmayacaqlar. G.Hacıbəyli alqı-satqı məsələləri üzrə mütəxəssisdir. Mən özümə borc bilərək ona və cəmiyyətə bu mesajı vermək istəyirəm ki, Ə.Kərimli heç kimə lazım deyil".

Göründüyü kimi, bu gün ölkənin aparıcı müxalifət partiyalarının təmsilçiləri bu və ya digər şəkildə real faktları ortaya qoyurlar. Bu faktlar isə, bir daha sübut edir ki, AXCP sədri Ə.Kərimlinin əsas məqsədi ölkənin maraqlarını satmaqdan ibarətdir.

***Rövşən NURƏDDİNOĞLU***

# Müxalif qurumların siyasi müstəvidən kənarlaşması günün reallığıdır

***Sirr deyil ki, Azərbaycan müxalifətində uğursuzluqlar bir-birini əvəz etməkdədir və müxalifətlə xalq arasında dərin bir uçurum yaranıb. Bunu son vaxtlar ölkə daxilində cərəyan edən proseslərdən görməmək mümkün deyil. Heç bir müxalifət qurumu normal siyasi fəaliyyətlə məşğul deyil və bu səbəbdən, yaradılmış qurumların siyasi müstəvini tərk etməsi labüddür.***



AXP sədri Pənah Hüseyn müxalifətin texnoloqu kimi tanınır və "SİDSUH", "DUH", "DUBB", "Milli Şura" kimi qurumların yaradılmasında ideya müəllifidir. Doğrudur, bu qurumların normal bir fəaliyyəti olmayıb, amma nəticədən asılı olmayaraq, bütün bu qurumların ideya müəllifi hesab olunan P.Hüseyn nədənsə həmin qurumlar yaradılandan sonra ən qısa zamanda həmin qurumları tərk edir və onların heç bir tədbirinə, plan və proqramlarına belə qoşulmur. Maraqlıdır, əgər bu qurumların yaradılması və mövcudluğu belə vacib idisə, o zaman niyə öz təşəbbüsü ilə yaradılmış qurumlardan imtina edir? Yox, əgər iştirak etmirsə, deməli, bu qurumların vacibliyini şübhə altına alır və vacib olmayan qurumun yaradılması ideyası bəs nəyə lazım idi? Cavab çox bəsit və məntiqsizdir: nəinki qurumların, hətta onları yaradanların və bu qurumda iştirak edənlərin fəaliyyəti də formaldır. Sanki göstərmə və afişalaşdırma xarakteri daşıyır. Hələ bundan sonra da, neçə-neçə qurumun yaradılması planlaşdırıla bilər və P.Hüseyn hələ çox ideyanın müəllifi ola bilər, amma təctübə sübut edir ki, nə Hüseyn bu quruma özü qatılacaq, nə də qurum bir doğru-dürüst fəaliyyətlə məşğul olacaq. Məsələ burasındadır ki, hər hansı bir müxalifət qurumu, təşkilat və partiya yaratmaq üçün sosial sifariş olmalıdır. Bu, ən vacib şərtdir. Hazırda belə bir sosial sifariş isə yoxdur və nə qədər qurum yaradılır-yaradılsın, hamısının fəaliyyəti boş, mənasız davranışlardan ibarət olacaq və onlar gec-tez məhvə məhkumdurlar. Bunu elə P.Hüseyn özü də ən tez zamanda dərk edir və qurumlardan uzaqlaşır. Amma bu biçarə onu dərk edə bilmir ki, cəmiyyət belə qurumlara heç ehtiyac da duymur və bu səbəbdən də, AXP sədrinin bir-birinin ardınca baş sındırıb, təzə-təzə qurumlar icad etməsinə də ehtiyac yoxdur.

### AXP sədrinin Müsavat divanında iştirakı altıncı barmaq misalındadır

Digər tərəfdən, Pənah Hüseyn elə bil, İsa Qəmbərə bağlıdır və onun hər addımını yamsılamağa çalışır. Yəni İ.Qəmbər nə kimi qərar qəbul edirsə, AXP sədri də həmin qərara uyğun hərəkət edir. Belə ki, yaradılmasında ideya müəllifi P.Hüseyn olan qurumları İ.Qəmbər tərk edən kimi, dərhal özü də bu qurumdan imtina edir. Elə isə, yaxşı olardı ki, ideya istehsal edəndə də, elə bir İ.Qəmbərlə məsləhətləşərdi. Çox maraqlıdır, bu funksionerlərin hər biri ayrı-ayrı partiyalarda təmsil olunur və hətta o qurumların liderlərindən sayılır, amma reallıq ondan ibarətdir ki, P.Hüseyn İ.Qəmbərin marioneti kimi davranır.

P.Hüseyn AXP sədridir, amma Müsavat divanında iştirak edir. Təəccüblüdür, bəs nizamnamədə buna imkan verilirmisə, elə bir hüquqi əsas varmı ki, partiyadaxili hansısa müzakirələrdə kənar bir şəxs iştirak etsin və təmsil olunsun? Nədənsə, öz üzvlərinin "Milli Şura", Əli Kərimli ilə əməkdaşlıq etmələrinə aqressiv yanaşılan Müsavat divanında AXP sədrinin iştirakına kimsə bir söz demir. Halbuki P.Hüseyndən başqa, hansısa partiya nümayəndəsinin iştirakı mümkünsüzdür. Əgər nizamnamə buna yol verirsə, o zaman niyə digər partiya nümayəndələri və sədrləri də Müsavat divanında iştirak etmir? Yox, əgər bu, nizamnaməyə ziddirsə, P.Hüseynin belə "əlahiddə statusunu" necə başa düşmək olar? Bu səlahiyyəti ona kim və hansı səbəbə verib? Görəsən, AXP sədri Müsavat üçün niyə belə yağlı tikə hesab olunur? Yaxud AXP sədrinin Müsavat divanında iştirak etməkdə nə marağı var? Başqa bir partiya sədri digər bir qurumda söz sahibi deyil və qərarların qəbulunda onun səs hüququ ola bilməz axı. Belə olan halda, P.Hüseynə elə gəlmirmi ki, onun bu divanda iştirakı altıncı barmaq misalındadır?

Məsələyə daha geniş prizmadan yanaşılsa, təbii ki, Azərbaycanın istər regional, istərsə də qlobal miqyasda nailiyyətləri, beynəlxalq aləmdə nüfuzu, dövlətin siyasi-iqtisadi uğurları, potensialı, əhalinin sosial vəziyyəti, ölkədə müsbət real durum və hansısa müxalifət qüvvələrinin fəaliyyətinə sosial sifarişin olmaması fonunda, ümumilikdə, müxalifət özü bütöv halda altıncı barmaq timsalındadır və arzuolunmazdır. Belə olan təqdirdə, bu dağıdıcı müxalifətin, onun ayrı-ayrı qanadının, AXP sədri Pənah Hüseynin ideya müəllifi olduğu qurumlarln artıq yer tutduğu müstəvidən kənarlaşması günün reallığıdır.

***İnam HACIYEV***

# İqbal Ağazadənin 2008-ci ildəki fikirləri Müsavatın yadına düşdü



"Ümid" partiyasının sədri İqbal Ağazadənin hələ 2008-ci ildə Müsavatın sabiq başqanı İ.Qəmbərlə bağlı dediyi fikirlər bu günlərdə yenidən həmin partiyanın kuluarlarında gündəmə gəlib. Daha doğru desək, müxalifətçi partiya sədri hələ o zamanlar demişdi ki, onun müxalifətdən olan yeganə rəqibi İ.Qəmbərdir və bu xüsusda ona qarşı ən sərt şəkildə mübarzə aparacaq. Yeri gəlmişkən, "Ümid" sədri hələ o zamanlar müxalifətin uğursuzluqlarına toxunaraq, bildirmişdi ki, belə bir siyasi çevrə ilə hər hansı uğur qazanmaq mümkün deyil. Hətta Müsavatın o zamankı başqanı İ.Qəmbəri hədəfə alan "ümidçi" sədr, bilavasitə, iddia etmişdi ki, cəmiyyət İ.Qmbərə dəstək verərsə, heç bir nailiyyət əldə edə bilməz. Ona görə də, "İ.Qəmbərin namizədliyini dəstəkləsək, onda cəmiyyət heç nə qazanmayacaq"-kimi ifadəsi ilə gündəmdə qalmağa çalışan İ.Ağazadənin bu fikirləri nədənsə, müsavatçıların yadlarına düşüb və onlar sosial şəbəkələrdə ona qarşı hücumlarını artırmağa başlayıblar.

### Arif Hacılı qarşısına çıxa biləcək istənilən müxalifətçi namizədi düşmən kimi qəbul edəcəyini bildirib

Son günlər zamanında Müsavatın ruporu oynamış "Yeni Müsavat" qəzetinin səhifələrində tez-tez görünən və Rauf Arifoğlunun qonağı olan İ.Ağazadə Müsavat partiyasının hazırkı rəhbəri, yəni bir neçə il öncə, qurultayda saxtakarlıq yolu ilə başqan seçilən A.Hacılını ittihama tutur. Bu isə, bir daha belə deməyə əsas verir ki, vaxtilə "türmə yoldaşı" olduğu A.Hacılı artıq onun siyasi rəqibinə çevrilib. Çünki bu gün "MSDM" sədri olan İ.Qəmbərin 2018-ci ildə prezidentliyə namizədliyini müdafiə edəcəyini iddia edən A.Hacılı qarşısına çıxa biləcək istənilən müxalifətçi namizədi düşmən kimi qəbul edəcəyini bildirib.

Partiya sədri müxalifətin mümkün namizədi məsələsinə toxunaraq, bir daha bəyan edib ki, əgər İ.Qəmbər namizəd olarsa, onu heç vaxt dəstəkləməyəcək.

Beləliklə, artıq düşərgədə ciddi qarşıdurma proseslərinə start verildiyini deyə bilərik. Bu proseslər isə, ilk növbədə, düşərgənin hansı vəziyyətə doğru sürükləndiyini sübut edir. Əgər sabah İ.Ağazadənin İ.Qəmbərə qarşı daha sərt ifadələrini eşidərsək, bundan təəccüblənməyə dəyməz.

***R.RƏSULOV***

# İnsan azadlığı: seçim və iradə azadlığı

***Hər bir fərd azadlığı, ilk növbədə, öz şəxsi hissi və azad seçimi kimi qəbul edir. Lakin bu subyektiv səpki, azadlığı tam əhatə etmir, çünki insan sosial mahiyyətə malikdir və fəaliyyəti ilə səciyyələnir. Buna görə də, azad seçim ümumi azadlığın yalnız bir fazasını əks etdirir. Ondan sonra azadlıq yeni mərhələlərə daxil olur. Əvvəlcə azad qərar qəbuletmə mərhələsindən, sonra isə, bilavasitə, azad hərəkət mərhələsindən keçir. Sonuncu, azadlığın obyektiv məqamı kimi xüsusi əhəmiyyət kəsb edir.***

Ümumilikdə, daxili azadlığın elmi-fəlsəfi izahı bir-birilə əlaqəli olan aşağıdakı üç səpkini əhatə edir: a) seçim azadlığı ilə sosial determinizmin münasibəti: b) daxili azadlığın insanın zəkası və hissləri ilə əlaqələri: c) müasir elmi nailiyyətlərin insanın iradə azadlığı mexanizminə müdaxiləetmə imkanları.

Birinci səpkini təhlil edərkən, göstərilməlidir ki, cəmiyyətdə hər bir insanın hərəkət və davranışının sosial şərtlənmiş xarakter daşıması, o demək deyildir ki, onun daxili azadlığı üçün heç bir yer qalmır. Əgər belə olsaydı, onda insanın fəaliyyəti digər canlılar kimi, ətraf mühitə passiv uyğunlaşmaqdan ibarət hesab olunardı. Əslində, fərdin fəaliyyət və davranışının sosial cəhətdən şərtlənməsi, onun fəal yaradıcı mahiyyətini inkar etmir. Belə ki, real sosial şərait insanın azadlığına maneçilik yaratdıqda, o, bu vəziyyətlə barışmır, öz azadlığı naminə mövcud ictimai münasibətlər sistemini dağıdaraq, yenisi ilə əvəz etmək uğrunda yorulmadan mübarizə aparır. Antoqonist ictimai-iqtisadi formasiyalar tarixi boyu davam edən fasiləsiz sinfi mübarizələr buna əyani sübutdur. Ümumilikdə götürdükdə isə, istənilən cəmiyyətdə insanların azad seçimini məhdudlaşdıran sosial şərait, nə qədər sərt olsa belə, burada da seçim imkanları tamamilə aradan qalxmır, müəyyən dərəcədə qalır. Həm də, nəzərdə tutulmalıdır ki, fərdin azad seçimi imkanları, onun yaradıcılıq keyfiyyətinə malik olması, bu və ya digər dəyərləri, baxışları və ustanovkaları müstəqil surətdə seçə bilməsi ilə təmin olunur.

Q.Allahverdiyev yazır: "İnsanın daxili azadlığının, azad seçiminin, onun zəka və hissləri ilə münasibətlərinə gəlincə, göstərilməlidir ki, burada sıx qarşılıqlı əlaqə mövcuddur. Qeyd etmək lazımdır ki, bu əlaqələr daha çox azad seçim ilə zəka arasında özünü göstərir. Bəzən belə yanlış təsəvvürlərə rast gəlmək olur ki, guya fərdin bu və ya digər konkret seçimi, zəkadan kənarda baş verən mistik aktdır. Əslində, insanın düzgün seçim etməsi irrasional xarakter daşımır. O, mövcud obyektiv vəziyyəti və amillər nisbətini zəka səviyyəsində mənalandırmağa və düzgün qiymətləndirməyə əsaslanan şüurlu aktdır. Bununla əlaqədar, qeyd edilməlidir ki, yalnız göstərilən təmələ arxalanan seçim əsl azad xarakter daşıyır. Doğrudur, bəzən elə hallara rast gəlinir ki, insanın seçimi obyektiv şərait haqqında biliklərə əsaslanmır, intuitiv yolla həyata keçirilir. Belə seçim də, sözün müəyyən mənasında, özünə azadlıq məqamlarını daxil edir. Digər tərəfdən, elə vəziyyət də özünü göstərə bilir ki, fərd mövcud obyektiv və subyektiv amilləri mənalandırmaqla seçim edir, lakin onun bilikləri kifayət dərəcədə olmadığından, gəldiyi qərar səhv olur. Bu qəbildən olan halların özü də seçimin guya zəkaya deyil, irrasionala arxalandığı və irəlicədən müəyyən olunduğu haqda təsəvvürlərə haqq qazandırmır".

İradə azadlığı, sözün müəyyən mənasında, insanın öz-özü üzərində sahib olması deməkdir. Bu müddəa bəzən birtərəfli izah edilərək, göstərilir ki, guya iradə azadlığı yalnız insan zəkasının öz hisslərini ələ ala bilməsi, lazım gəldikdə, öz hissləri və ehtiraslarını cilovlamaq qabiliyyətindən ibarətdir. Əslində isə, o, daha geniş məzmuna malikdir, yəni onun tərkibinə, həm də insanın özündə müsbət hisslər, emosiyalar və mənəvi keyfiyyətlər tərbiyə etməsi daxildir. Digər tərəfdən, insan tərbiyə və özünütərbiyə prosesində məqsədlərini yerinə yetirməyə mane olan neqativ ənənələr və niyyətlər üzərində də qələbə çalmağı bacarmalıdır. Bu da, onun iradəsinə aiddir. Deyilənlər sübut edir ki, iradə azadlığı öz məzmununa görə, geniş anlayış olmaqla, insanın öz iradəsini müsbət hisslər və qabiliyyətlər formalaşdırmaq istiqamətinə yönəltməsini nəzərdə tutur.

Beləliklə, azadlığın mexanizmində seçim xüsusi yer tutur. Həm də, nəzərdə tutulmalıdır ki, seçimin bütün mərhələlərində azadlıq prosesi yenidən təhlil olunub mənalandırılır. Hətta sonuncu pillədə (qərarın reallaşması) də, seçimin doğru olmadığı aşkar oluna və ona düzəlişlər edilə bilir. Bu proses nəticədə, subyektin maraqlarına cavab verən seçimin əldə edilməsi ilə başa çatır.

Mövcud şəraitin irəli sürdüyü alternativlərdən uğurlu seçim edilməsi və qərarın qəbul edilməsi, məqsəd və vasitələrin müəyyənləşdirilməsi, onların əsasında qərarın həyata keçirilməsi və real azadlıq mərhələsi ilə tamamlanır. Bu mərhələnin azadlığın ümumi strukturunda yeri əvəzsizdir. Belə ki, o, azadlıq məqsədinin əsl təminatçısı kimi çıxış edir, bütün əvvəlki pillələr sanki onun əldə olunmasına yönələn hazırlıq deməkdir.

İradə azadlığı insan azadlığının bütün mərhələlərində özünü göstərir. Lakin o, davranış və fəaliyyətin seçimi və insanın azad-iradi hərəkətlərinin baş verdiyi şərait haqqında biliklərlə daha çox bağlıdır. Buradan görünür ki, "iradə azadlığı" daxili azadlıq və ümumi sosial azadlıqdan ayrılmazdır. Belə ki, sosial azadlıq sonuncunun yaranmasının ümumi şəraitini təmin edir, öz növbəsində, iradə azadlığı subyektin biliklər əsasında qərara gəlmək məharətini ifadə edir.

Fərdin iradi hərəkətləri, onun aktivliyinin sövqedici motivləri olan tələbatları və mənafelərindən irəli gəlir. Buna görə də, iradə azadlığı motivdən kənar və ya təsadüfi seçimi qəbul etmir. Bu, həm də onunla bağlıdır ki, insan iradəyə malik mövcudat kimi, öz tələbat və mənafelərini də ələ almaq imkanına malikdir.

Bütövlükdə, davranış və fəaliyyət motivlərinin seçimində müəyyən fərdi xüsusiyyətlər vardır və onlar subyektin daxili vəziyyəti ilə şərtlənir.

İnsanın "iradə-azadlıq" sxeminin mexanizmində, həm də maraqların yerinə yetirilməsinə onun nə dərəcədə hazır olması, konkret hərəkətə və fəaliyyətə yönümü (ustanovkası) son dərəcə vacibdir. Bu amil insanın ümumi xüsusiyyətlərinin formalaşmasını, xüsusən də, onun bütöv strukturunu təmin edən əsas amillərdəndir. Görkəmli psixoloq D.Uznadze yazır: "Müəyyən bir tələbat və onun ödənilməsi üçün şərait mövcud olduqda, subyektdə elə bir spesifik vəziyyət yaranır ki, onu insanın öz aktual tələbatlarını ödəməyə yönələn müəyyən fəaliyyət göstərməyə hazır olmaq kimi, ustanovka kimi səciyyələndirmək olar".

Cəmiyyətdə insanların əmək, təlim-tərbiyə və ünsiyyət prosesində çoxsaylı ustanovkalar sistemi formalaşır, zaman keçdikcə, onlar təkmilləşir və yeniləşir. Bu prosesdə tez-tez təkrarlanan və subyektin maraqlarına daha çox uyğun gələn ustanovkalar möhkəmlənir və sabit şəkildə qərarlaşır. Ümumilikdə götürdükdə, ustanovkalar insan ilə sosial həyat arasında qarşılıqlı və çoxtərəfli əlaqələrin psixoloji mexanizminin zəruri ünsürü kimi, azadlığın formalaşmasına və reallaşması səviyyəsinə mühüm təsir göstərir.

Beləliklə, insanın azad iradəyə malik olması, onun məqsədyönlü aktivliyində ifadə olunur, buna görə də, həm də məsuliyyətlidir. Öz növbəsində, sonuncunun hüdudları azadlıq ilə müəyyən olunur. Lakin azadlığın təbiəti seçim azadlığı ilə, yəni azadlığın subyektiv səpgisi ilə məhdudlaşmır. Belə ki, insan sosial mahiyyətli varlıq olduğundan, onun seçim azadlığı, qərar qəbuletmə azadlığına və oradan da hərəkət azadlığına keçir, yəni obyektiv azadlığa keçir. Bu prosesdə insanın azadlığı və məsuliyyəti bir-birindən ayrılmazdır. Başqa sözlə deyilsə, insanın məsuliyyəti iradə azadlığından istifadə etmək məharəti kimi çıxış edir. Digər tərəfdən, məsuliyyət azadlığın çox mühüm şərtidir, çünki hər hansı məsuliyyətsiz hərəkət, digər insanların azadlığına və ümumilikdə, cəmiyyətin azadlığına ciddi zərbə vura bilir.

Məsuliyyətli azadlıq insanın özünütərbiyəsinin zəruri tərəfidir. O, insanın öz hərəkətlərini təhlil etməsi, onlar üçün hesabat verməsi, özünütənzim etməsi və özünü məhdudlaşdırması deməkdir. Digər tərəfdən, lazım gəldikdə, insanın azad seçiminin və hətta azad hərəkətinin məhdudlaşdırılması, həm də onun məsuliyyətinin azalmasına gətirib çıxarır.

Fəlsəfi ədəbiyyatda, bəzən belə bir fikrə rast gəlinir ki, guya şəxsiyyətin sosiallaşması, onun fərdi hərəkət azadlığı imkanlarını məhdudlaşdırır. Məsələn, C.Morenonun fikrincə bu yol azadlıq üçün çıxılmaz bir maneə ola bilər.

Bu halda, azadlıq fərdiyyətçilik baxımından anlaşılır, belə təsəvvür olunur ki, guya insan başqalarından nə qədər çox uzaq olsa, onun azadlığı bir o qədər çox olar. Bu fikrin səhv olduğunu From "Azadlıqdan qaçış" əsərində sübut etmişdir.

Azadlıq prosesinin strukturunda, həm də mənlik şüuru müstəsna dərəcədə böyük rol oynayır. Əlbəttə, onu əvvəlki pillələrin ardıcıl davamı olan dördüncü pillə kimi təsəvvür etmək doğru olmazdı. Əslində, mənlik şüuru azadlığın bütün mərhələ və səviyyələrində özünü göstərir və ümumi prosesin keyfiyyətini təmin etməyə yönəlir. Bu mənada, dərketmə (biliklər əldə olunması), seçim, qərarın qəbulu və yerinə yetirilməsi mənlik şüurundan kənarda baş vermir.

Ümumi azadlıq idealı cəmiyyətin müxtəlif sosial strukturları tərəfindən eynimənalı tərzdə qəbul olunmur, çox müxtəlif çalarlara malikdir. Buna görə də, azadlığın strukturunu təhlil edərkən, onun hansı subyekt növünün tələbat və mənafeyini əks etdirdiyi diqqət mərkəzində tutulmalıdır. Başqa sözlə deyilsə, azadlığın ümumi mexanizmini ifadə edən mərhələlər və tərəflər müxtəlif subyektlərdə müəyyən özünəməxsusluqlarla çıxış edir.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 20 yanvar

## Toyuq bulyonunun bilmədiyimiz faydaları...



İlk növbədə nəzərinizə çatdıraq ki, söhbət, təbii ki, kənd toyuğundan (broyler toyuğundan deyil!) bişirilmiş bulyondan gedir. Belə bulyonu əsl dərman adlandırmaq olar. Amerika alimləri araşdırma zamanı onun tərkibində güclü antioksidant olan "karnozin"i aşkar ediblər. Karnozin insanın immun sistemini gücləndirir, iltihabı azaldır, soyuqdəymə və qripp nəticəsində orqanizmdə əmələ gələn toksinləri neytrallaşdırır və bununla da intoksikasiyanın simptomarını (baş, əzələ, oynaqlar ağrıları) azaldır, xəstənin vəziyyətini yüngülləşdirir. Digər tərəfdən karnozin orqanizmdə qocalma proselərini ləngidir, orqanizmi cavanlaşdırır. Toyuq bulyonunun tərkibində olan "sistein" aminoturşusu bəlğəmin durulaşmasına və orqanizmdən daha asan çıxmasına kömək edir. İsti toyuq bulyonu nəfəs yollarına çox müsbət təsir edir - bronxların keçiriciliyini yaxşılaşdırır, öskürəyin və zökəmin müalicəsində kömək edir, nəfəsalmanı asanlaşdırır, boğaz ağrısını azaldır. Mütəxəssislər ikinci toyuq bulyonundan istifadə etməyi tövsiyə edirlər. Yəni ilk dəfə qaynadıqdan sonra bulyon atılır, toyuq ətinin üzərinə təzə su tökülür və bulyon bişirilir. İlk toyuq bulyonunda çoxlu ekstraktiv maddələr var ki, bu maddələr bir çox xəstəliklər zamanı (podaqra, böyrək, qaraciyər, öd kisəsi və öd yolları, şəkərli diabet və s.) ziyanlıdır.

## Kişilər və qadınlar üçün uzunömürlülük sirri



Uzunömürlü olmaq istəyirsən? Bunun yolu tapılıb. Sən demə, kişilərə uzunömür üçün yuxu, qadınlara isə tərəvəz lazımdır. Avstraliyalı alimlər belə qənaətə gəliblər. Qəbul edilən qidaların tərkibi B6 vitamini ilə xüsusilə bol olmalıdır.

Bu vitamin tərəvəzlərdən əlavə ət, banan, qoz və sarımsaqda da boldur. Monaşa Universitetinin tədqiqatçıları yuxu və qidanın həyata təsirini müəyyən ediblər. Professor Mark Uolkvist əmindir ki, kişilər üçün yuxu qadınlardan daha vacibdir.

"Yuxusuzluq piylənməyə, diabetə, ürək-damar xəstəliklərinə, ürəyin işemik xəstəliklərinə və immunitetin ümumi zəifləməsinə səbəb ola bilər. Biz belə nəticəyə gəlmişik ki, hər iki cins yuxusuzluqdan əziyyət çəkir. Amma qadınlar yuxusuz qalsalar da, özlərinə kömək edə bilirlər. Bunun yolu isə çoxlu tərəvəz və B: vitamini olan qida yeməkdən keçir". Kişilərdə isə bu qabiliyyət yoxdur. Alimlərin məsləhəti isə belədir - hamı həm sağlamlığını, həm də xarici görünüşünü daha da yaxşılaşdıra bilər. Bunun üçün isə düzgün qidalanmaq (daha çox meyvə-tərəvəz, dəmir və B6 vitamini ilə bol qidalar) və yatmaq lazımdır.

## Xəbərdarlıq: Rezin bilərziklər zəhər saçır



Son zamanlarda uşaqların böyük maraqla taxdığı rəngli rezin bilərziklər, böyük təhlükəni saxladığı və tərkibində kansrogen maddə olduğu üçün uşaqlara zərər verir. Plastik hörgü bilərziklər göründüyü qədər günahsız deyil. Kiçik paket içərisində satılan və son zamanlarda qız uşaqları arasında bilərzik istehsalında istifadə edilən və olduqca məşhur olan rezin hörgü vəsaitlərinin zəhər saçdığı ortaya çıxıb. Çünki içərisində xərçəngə yol açan yüksək miqdarda 'fitelat' var. Fitelatlarda xərçəng maddəsi ehtiva edən məhsuldur.

**Harada istifadə edilir?**

Sənayedə sərt plastik dediyimiz məhsulları yumşaltmaq üçün istifadə edilir. Fitelatların suda həll edildiyi üçün çox təhlükəlidir. Avropada, ABŞ-da qadağan edilən bir məhsuldur. Çünki xərçəng təhlükəsi yaradır.

# 2018 Formula-1 Azərbaycan Qran Pri yarışı ilə əlaqədar viza prosedurları sadələşdiriləcək



Prezident İlham Əliyev 2018 Formula-1 Azərbaycan Qran Pri yarışının təşkili və keçirilməsi ilə bağlı Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən Azərbaycanda keçiriləcək 2018 Formula 1 Azərbaycan Qran Pri yarışı ilə əlaqədar ölkəmizə gələn və bu Sərəncamda göstərilən sənədlərdən hər hansı birini təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2018-ci il martın 15-dən mayın 15-dək Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Konsulluq İdarəsinin Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında yerləşən struktur bölmələrində viza ala bilərlər.

Aşağıdakı sənədlərdən biri viza verilməsi üçün əsas hesab edilir: Formula 1 yarışlarının beynəlxalq təşkilatçıları olan "Formula One Management Limited" şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiq edən kart və ya digər sənəd, Bakı Şəhər Halqası Əməliyyat Şirkətində akkreditasiyadan keçməni təsdiq edən kart, 2018 Formula 1 Azərbaycan Qran Pri yarışına bilet və ya biletin əldə olunmasını təsdiq edən sənəd.

# Bakıda dünya çempionatı Olimpiya tituluna namizədlərin adlarını açıqlayacaq



Yanvarın 19-21-də keçiriləcək Tunis Qran-Prisi cüdoda beynəlxalq mövsümə start verəcək. AZƏRTAC "azerijudo.com" saytına istinadla xəbər verir ki, builki təqvim yetərincə gərgindir: on Qran-Pri və beş "Böyük dəbilqə" turniri nəzərdə tutulub. İlin ən gözlənilən hadisəsi isə şübhəsiz ki, Bakıda keçiriləcək dünya çempionatıdır. Beynəlxalq Cüdo Federasiyası (IJF) qarşıdan gələn mundiala "Gərgin il" adlı xüsusi məqalə həsr edib.

Portal yazır: "Ötən il Budapeştdə keçirilən parlaq dünya çempionatından sonra, - bu çempionat təkcə 14 çəki dərəcəsində yeni qaliblərin adlarını deyil, həm də qarışıq komanda yarışlarında qalib titulunun ilk sahibinin (Yaponiya) adını açıqladı, - Bakıdakı planet birinciliyi böyük səbirsizliklə gözlənilir. Bir tərəfdən, idmançılar 2020-ci ildə Tokio Olimpiadasına vəsiqə qazanmaq üçün Olimpiya balları toplayacaqlar, digər tərəfdən, Bakıda Olimpiya tituluna namizədləri görmək, yaxın üç ildə dünya arenasında əsas rol oynayacaq idmançıları müəyyən etmək mümkün olacaq".

# Obameyanq "Arsenal"la müqaviləni 2021-ci ilədək razılaşdırıb



Dortmundun "Borussiya" komandasının hücumçusu Pyer Emerik Obameyanqın "Arsenal"a keçmək vaxtı yaxınlaşır. AZƏRTAC xəbər verir ki, 28 yaşlı qabonlu futbolçu London futbol klubu ilə şəxsi müqavilənin şərtlərini 2021-ci ilin yayınadək razılaşdırıb. Sazişin daha bir mövsüm uzadılacağı ehtimalı mümkündür. Obameyanqın "Arsenal"da qazancı vergiləri ödədikdən sonra ildə 10 milyon avro təşkil edəcək. "Borussiya" oyunçusunu 60 milyon avroya buraxmağa razıdır, lakin transferi yay ayında həyata keçirmək istəyir. "Arsenal" razılaşmaya hücumçu Olivye Jirunu daxil edə bilər.

**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

**Buraxılışa məsul: Mətləb Salahov**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**